DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

**M.M.Abbaszadə, O.Y.Şelaginov, F.K.Əhmədov**

# KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLAR STATİSTİKADA

## 2009-2023-CÜ İLLƏR

**2009-2023-CÜ İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ KEÇİRİLƏN QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ƏSASINDA**

"Abituriyent" jurnalının 12-ci sayına əlavə

**BAKI - 2023**

**M.M.Abbaszadə, O.Y.Şelaginov, F.K.Əhmədov.**

**KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLAR STATİSTİKADA**
(2009-2023-cü illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının nəticələri əsasında).

Təqdim olunan material 2009-2023-cü illərdə keçirilən tələbə qəbulunun ümumi elmi-statistik təhlilinin bir hissəsidir. Materialda kənd təsərrüfatı profilli ixtisaslara qəbul planı və gənclərin ixtisas seçimində ifadə olunan istəklərinin dinamikası, həmçinin onların imtahan göstəricilərinin təhlili əks olunmuşdur.

Material kənd təsərrüfatı sahəsi və təhsil sistemi işçiləri üçün nəzərdə tutulmuşdur.

**Dil və üslub üzrə redaktor:**
**N.M.Musayev**

**Kompüter və dizayn:**
**İ.İ.Cəfərov, S.A.Vəliyeva, X.S.Mirzəyev**

***Redaksiyanın ünvanı:***
***AZ1029, Bakı şəhəri, Nizami rayonu, Davud Aslan küçəsi, 2A.***

***Telefon: 1653 (DİM-in çağrı mərkəzi),***

***Whatsapp: (+99450) 225-54-99 (Redaksiya).***

***Elektron poçt: abiturient.journal@gmail.com***
***Veb-sayt: www.abiturient.az***

***Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***(Lisenziya B 171, 18 fevral 1999-cu il)***

**© DİM - "Abituriyent"**

**Dövlət İmtahan Mərkəzinin rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması QADAĞANDIR!**

***Çapa imzalanmışdır 21.05.2024, tiraj 50.***
***Jurnal redaksiyada kompüterdə yığılmış, səhifələnmiş və DİM-in mətbəəsində çap edilmişdir.***

Müstəqillik dövründə qəbul edilmiş çoxsaylı qanunverici və hüquqi-normativ aktların yarıdan çoxu respublika iqtisadiyyatını dirçəltməyə və inkişaf etdirməyə yönəldilmişdir. Bu dövrdə iqtisadiyyatın aqrar sektoruna da aid çoxsaylı qanunlar qəbul edilmişdir.

Hələ 1999-cu ildə ölkə Prezidenti H.Əliyevin fərmanı ilə təsdiq edilmiş "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına yardım üzrə Dövlət Proqramı" aqrar sahənin 8 mühüm perspektiv istiqamətini əhatə edirdi. Bunların arasında aqrar sektor üçün kadrların hazırlanması, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi, informasiya təminatı və s. kimi prioritet istiqamətlər xüsusi yer almışdı.

Prezident cənab İ.Əliyevin 2004-cü il tarixli fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)" isə aqrar islahatların ikinci mərhələsinin konseptual əsası oldu. Cənab Prezidentin imzaladığı növbəti mühüm sənədlər isə "2008–2015-ci illərdə Azərbaycan Respublikası əhalisinin etibarlı ərzaq təminatına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Göstərilən dövlət sənədlərində başlıca məqsəd ölkə iqtisadiyyatını məcmu şəkildə xarici iqtisadi asılılıqdan qurtarmaq, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək və bunun üçün müvafiq vəzifələr müəyyənləşdirərək həyata keçirməkdir. Bütün bunların gerçəkləşdirilməsi isə, təbii ki, səriştəli, yüksəkixtisaslı peşəkar kənd təsərrüfatı kadrlarının hazırlanmasını zəruri edir.

Bu baxımdan, ali təhsil müəssisələrinin də üzərinə müəyyən öhdəlik və vəzifələr düşür. Hazırda kənd təsərrüfatı profilli ixtisaslar üzrə kadr hazırlığı ölkənin səkkiz ali təhsil ocağında – Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Azərbaycan Kooperasiya Universiteti, Qərbi Kaspi Universiteti və Xəzər Universitetində aparılır. Bu unversitetlərin kənd təsərrüfatı profilli ixtisaslarına gənclərin maraq və istəkləri, həmin

ixtisasları seçənlərin hazırlıq səviyyələri, ayrı-ayrı ixtisaslar üzrə yaranmış müsabiqə vəziyyəti və s. bu kimi məqamlar ictimaiyyət üçün az maraq kəsb etmir. Bütün bunlar barədə kənd təsərrüfatı profilli ixtisaslara tələbə qəbulu nəticələrinin Dövlət İmtahan Mərkəzində aparılmış elmi-statistik təhlilindən ətraflı məlumat almaq olar.

Təqdim olunan material 2009–2023-cü illərdə ali təhsil müəssisələrinin kənd təsərrüfatı profilli ixtisaslarına qəbulun nəticələri və bu nəticələrin elmi-statistik təhlilinə həsr edilmişdir.

Qəbul planına daxil olan ali təhsil ixtisasları beş qrupa bölünür: I qrupa riyaziyyat, fizika, mühəndislik, memarlıq və aqrar; II qrupa iqtisadiyyat, idarəetmə, sosiologiya və coğrafiya; III qrupa humanitar və pedaqogika; IV qrupa tibb, kimya, biologiya, psixologiya və aqrar; V qrupa incəsənət, dizayn, musiqi və idman ixtisasları daxildir.

İxtisas qrupları  imtahan fənlərinin tərkibinə görə fərqlənir.

Ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. I mərhələdə abituriyentlərə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə test tapşırıqları təqdim olunub və toplanıla bilən maksimal bal 300-ə bərabər olub. Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrində 2023-cü ildə bitirən abituriyentlərin buraxılış imtahanındakı nəticələri onların qəbul imtahanının I mərhələsinin nəticəsi kimi götürülüb və onlar ayrıca imtahan verməyiblər. II mərhələdə abituriyentlərə I ixtisas qrupu üzrə riyaziyyat, fizika və kimya/informatika, II ixtisas qrupu üzrə riyaziyyat, tarix və coğrafiya, III ixtisas qrupu üzrə ana dili, tarix və ədəbiyyat/coğrafiya, IV ixtisas qrupu üzrə fizika, kimya və biologiya fənlərindən test tapşırıqları təqdim olunub və toplanılan bilən maksimal bal 400-ə bərabər olub. I-IV ixtisas qrupları üzrə müsabiqəyə hər iki mərhələ üzrə birlikdə topladıqları ümumi balları 200-dən, II mərhələ üzrə topladıqları balları 100-dən  az olmayan abituriyentlər buraxılıblar. V ixtisas qrupu üzrə müsabiqəyə isə I mərhələ üzrə topladıqları balları ixtisasdan asılı olaraq, 30, 60 və ya 120-dən və müvafiq xüsusi qabiliyyət imtahanından müsbət qiymət alan abituriyentlər buraxılıblar.

Kənd təsərrüfatı profilli ixtisaslar I (RK altqrupu) və IV ixtisas qrupları arasında bölüşdürülüb. 1 saylı cədvəldə kənd təsərrüfatı profilli ixtisasların siyahısı və daxil olduğu ixtisas qrupları göstərilib:

Cədvəl 1

| I ixtisas qrupu | IV ixtisas qrupu |
|---|---|
| Aqromühəndislik | Bağçılıq və tərəvəzçilik |
| Aqronomluq | Baytarlıq təbabəti |
| Balıqçılıq | Bitki mühafizəsi |
| Meşəçilik | Su bioehtiyatları və akvakultura |
| Şərabçılıq | |
| Torpaqşünaslıq və aqrokimya | |
| Zoomühəndislik | |

2008-ci ildən etibarən ərizə qəbulu internet vasitəsilə iki mərhələdə aparılır. Birinci mərhələdə bütün abituriyentlərdən imtahanda iştirak etmək üçün, ikinci mərhələdə isə müəyyən edilmiş müsabiqə şərtlərini ödəmiş abituriyentlərdən ixtisas seçimi üçün ərizə qəbulu aparılır. Beləliklə, abituriyentlər ixtisas seçimini qəbul imtahanının nəticələri elan olunduqdan sonra edirlər.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq gənclərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində həm dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla təhsil alması üçün qəbul aparılır. Dövlət sifarişi əsasında təhsil adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığını dövlət sifarişinə əsasən yerinə

yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq verilir.

2023-cü ildə kənd təsərrüfatı profilli bütün ixtisaslar üzrə müsabiqəyə müvafiq ixtisas qrupu üzrə keçirilən qəbul imtahanında topladığı ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılmışdır.

1 saylı şəkildə 2009-2023-cü illər üzrə ali təhsil müəssisələrinin kənd təsərrüfatı ixtisaslarına qəbul planı və verilən ərizələrin sayının illər üzrə dinamikası təqdim olunmuşdur. Şəkildən də göründüyü kimi, 2015-ci ildə ərizələrin sayında kəskin artım olmuşdur. Belə ki, 2014-cü illə müqayisədə ərizələrin sayı 3.3 dəfə artmışdır (916 nəfərdən 2980 nəfərədək). Bunun əsas səbəbi 2015-ci ildə bəzi kənd təsərrüfatı ixtisaslarının IV qrupdan I qrupa keçirilməsi olmuşdur. 2015-ci ilədək IV ixtisas qrupunda olan “Torpaqşünaslıq və aqrokimya”, “Balıqçılıq və balıqçılıq təsərrüfatı işi”, “Meşəçilik”, “Aqronomluq” və “Zootexniklik” ixtisasları həmin ildən etibarən I ixtisas qrupunun tərkibinə daxil edilmişdir. 2016-cı ildə də bu tendesiya davam etmiş və 2015-ci illə müqayisədə ərizələrin sayı 25.24% artaraq 3731-ə çatmışdır. Bu onunla bağlıdır ki, IV qrupa sənəd verənlərin əksəriyyəti daha çox tibb sahəsi üzrə təhsil almağa, hətta aşağı hazırlıqlı abituriyentlər belə, ali təhsil müəssisələrinin kənd təsərrüfatı profilli ixtisaslarında təhsil almaqdan daha çox orta ixtisas təhsili müəssisələrində tibb sahəsi üzrə təhsillərinin davam etdirməyə üstünlük verirlər. 2017-ci ildə ərizələrin sayı 2016-cı illə müqayisədə 6.81% azalaraq 3477 olmuşdur. 2018-ci ildə ərizələrin sayında yenidən artım müşahidə olunmuşdur. 2017-ci illə müqayisədə ərizələrin sayı 23.78% artaraq 4304-ə çatmışdır. 2019-cu ildə bu artım davam etmiş və ərizələrin sayı 5.37% artaraq 4535 (onlardan 127-si subbakalavr) olmuşdur. 2020-ci ildə isə ərizələrin sayı (4550 nəfər, o cümlədən 192 subbakalavr) demək olar ki, dəyişməmişdir. 2021-ci ildə ərizələrin sayı 9.49% artaraq 4982 nəfərə (onlardan 309-u subbakalavr), 2022-ci ildə 5.68% artaraq 5265 nəfərə (onlardan 410-u subbakalavr), 2023-cü ildə 10.73% artaraq 5830 nəfərə (onlardan 581-i subbakalavr) çatmışdır.

Ərizələrin artımının başqa səbəbi kənd təsərrüfatı profilli ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan tələblərin digər ixtisaslarla müqayisədə aşağı olmasıdır. Nəticədə, yalnız kənd təsərrüfatı ixtisaslarını seçə bilən abituriyent kontingenti yarandı ki, bu da öz növbəsində həmin ixtisaslara verilən ərizələrin sayının artmasına ciddi təsir göstərdi.

2022-ci ildə kənd təsərrüfatı profilli ixtisaslara qəbul üçün ayrılan plan yerlərinin sayı 2009-cu ildən etibarən öz maksimumuna çatmışdır (1790 yer). Diaqramdan da göründüyü kimi (bax: şəkil 1 və 2, səh. 8-9) 2009-cu illə müqayisədə plan yerlərinin sayı 4.89 dəfə artmışdır. 2023-cü ildə plan yerlərinin sayı 1.96% azalaraq 1755-ə bərabər olmuşdur.

2009-2023-cü illərdə kənd təsərrüfatı profilli ixtisaslara dövlət sifarişi və ödənişli əsaslarla ayrılan yerlərə ayrı-ayrılıqda verilən ərizələrin dinamikasına nəzər yetirək (bax: şəkil 2, səh. 9). Qeyd edək ki, 2010-cu ildən dövlət ali təhsil müəssisələri ilə bərabər, özəl ali təhsil müəssisələrinə də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərə qəbul aparılmasına başlanıldı. Şəkildən göründüyü kimi, 2013-cü ildən etibarən dövlət sifarişi əsasında ayrılan yerlərə verilən ərizələrin sayı ödənişli əsaslarla ayrılan yerlərə verilən ərizələrin sayını üstələyir. Bunun əsas səbəbi 2013-cü ildən etibarən Azərbaycan Dövlət Aqrar Universitetinin kənd təsərrüfatı profilli ixtisaslarına tələbə qəbulunun yalnız dövlət sifarişi əsasında aparılmasıdır. 2017-ci ildən etibarən Naxçıvan Dövlət Universitetinin, 2019-cu ildən etibarən isə Lənkəran Dövlət Universitetinin kənd təsərrüfatı profilli ixtisasları üzrə də tələbə qəbulunun yalnız dövlət sifarişi əsasında aparılmışdır.

Ümumilikdə, 2023-cü ildə 1315 yer üzrə (kənd təsərrüfatı profilli ixtisaslar üzrə ümumi plan yerlərinin 74.93%-i) qəbul yalnız dövlət sifarişi əsasında aparılmışdır. 2022-ci ildə belə yerlərin sayı 1360 (kənd təsərrüfatı profilli ixtisaslar üzrə ümumi plan yerlərinin 75.98%-i), 2021-ci ildə 1150 (75.41%), 2020-ci ildə 1045 (78.57%), 2019-cu ildə 940 (85.45%), 2018-ci ildə isə 690 (68.66%) olmuşdur.

## 2009-2023-cü İLLƏR ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARINA QƏBUL PLANI VƏ VERİLƏN ƏRİZƏ SAYININ DİNAMİKASI




Şəkil 1


2009-2023-cü İLLƏR ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARINA QƏBUL PLANI, DÖVLƏT SİFARİŞİ VƏ ÖDƏNİŞLİ ƏSASLARLA AYRILMIŞ YERLƏRƏ VERİLƏN ƏRİZƏ SAYININ DİNAMİKASI
Qəbul planı
Dövlət sifarişli yerlərə ərizələrin sayı
Ödənişli yerlərə ərizələrin sayı
0
500
1000
1500
2000
2500
3000
3500
4000
4500
5000
2009 366 518 857
2010 406 251 932
2011 362 400 954
2012 638 410 1109
2013 555 777 332
2014 545 789 223
2015 430 2761 802
2016 670 3536 851
2017 780 2648 1543
2018 1005 3537 1817
2019 1100 3584 1744
2020 1330 3844 2246
2021 1525 4493 2518
2022 1790 4339 2565
2023 1755 4676 2719

Şəkil 2

2-11 saylı cədvəllərdə ali təhsil müəssisələri üzrə 2014-2023-cü illərdə kənd təsərrüfatı profilli ixtisaslara tələbə qəbulu planları, bu ixtisaslara verilən ərizələrin sayı və müsabiqə göstəriciləri təqdim edilir.

**2014-cü il** Cədvəl 2

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 144269 | Aqromühəndislik (ADAU) | A | Ə | 55 | 258 | 258 | 0 | 1.819 |
| 144277 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 69 | 69 | 0 | 1.613 |
| 144333 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 51 | 51 | 0 | 1.949 |
| 112484 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 287 | 168 | 165 | 2.389 |
| 112492 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 209 | 108 | 126 | 2.010 |
| 112573 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 15 | 55 | 30 | 36 | 0.875 |
| 142721 | Aqronomluq (NDU) | A | Ə | 15 | 33 | 33 | 0 | 0.441 |
| 142738 | Baytarlıq (NDU) | A | Ə | 15 | 36 | 36 | 0 | 0.629 |
| 144577 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 35 | 135 | 135 | 0 | 0.815 |
| 144585 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 44 | 44 | 0 | 0.779 |
| 144593 | Aqronomluq (ADAU) | A | Ə | 60 | 89 | 89 | 0 | 0.261 |
| 144617 | Aqronomluq (ADAU) | A | Q | 15 | 24 | 24 | 0 | 0.280 |
| 144625 | Zootexniklik (ADAU) | A | Ə | 15 | 51 | 51 | 0 | 0.520 |
| 144633 | Zootexniklik (ADAU) | A | Q | 15 | 18 | 18 | 0 | 0.176 |
| 144641 | Baytarlıq (ADAU) | A | Ə | 65 | 103 | 103 | 0 | 0.443 |
| 144658 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 25 | 50 | 50 | 0 | 0.249 |
| 144666 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Q | 15 | 21 | 21 | 0 | 0.243 |
| 144674 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 60 | 60 | 0 | 0.276 |
| 144682 | Meşəçilik (ADAU) | A | Q | 15 | 21 | 21 | 0 | 0.208 |
| 144699 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 30 | 82 | 82 | 0 | 0.380 |
| 144722 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 30 | 30 | 0 | 0.513 |
| 144739 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 30 | 30 | 0 | 0.726 |

**2015-ci il** Cədvəl 3

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111285 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 25 | 649 | 439 | 479 | 18.343 |
| 111382 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 113 | 62 | 100 | 3.392 |
| 142665 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 15 | 223 | 148 | 179 | 4.664 |
| 144244 | Aqronomluq (ADAU) | A | Ə | 30 | 1447 | 1447 | 0 | 11.917 |
| 144252 | Aqronomluq (ADAU) | A | Q | 15 | 781 | 781 | 0 | 11.170 |
| 144269 | Zootexniklik (ADAU) | A | Ə | 30 | 1286 | 1286 | 0 | 7.772 |
| 144293 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 1653 | 1653 | 0 | 9.745 |
| 144317 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 849 | 849 | 0 | 15.525 |

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 144374 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 158 | 158 | 0 | 5.456 |
| 144382 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 171 | 171 | 0 | 6.076 |
| 144569 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 15 | 1575 | 1575 | 0 | 42.772 |
| 144577 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 867 | 867 | 0 | 19.141 |
| 144593 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 30 | 1256 | 1256 | 0 | 8.562 |
| 144617 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 1317 | 1317 | 0 | 8.814 |
| 112492 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 254 | 166 | 135 | 3.832 |
| 142673 | Baytarlıq (NDU) | A | Ə | 15 | 66 | 66 | 0 | 1.079 |
| 144585 | Baytarlıq (ADAU) | A | Ə | 30 | 183 | 183 | 0 | 2.121 |
| 144625 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 15 | 168 | 168 | 0 | 2.953 |
| 144641 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 24 | 24 | 0 | 0.988 |

**2016-cı il** — Cədvəl 4

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111285 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 45 | 1206 | 936 | 571 | 16.873 |
| 111382 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 15 | 195 | 78 | 171 | 8.994 |
| 112573 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 254 | 194 | 109 | 4.057 |
| 142235 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 20 | 385 | 385 | 0 | 5.961 |
| 142543 | Baytarlıq (NDU) | A | Ə | 20 | 77 | 77 | 0 | 1.268 |
| 144236 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 60 | 1819 | 1819 | 0 | 11.431 |
| 144244 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 932 | 932 | 0 | 14.519 |
| 144252 | Aqronomluq (ADAU) | A | Ə | 45 | 1673 | 1673 | 0 | 9.562 |
| 144269 | Aqronomluq (ADAU) | A | Q | 15 | 848 | 848 | 0 | 9.483 |
| 144277 | Zootexniklik (ADAU) | A | Ə | 30 | 1407 | 1407 | 0 | 8.633 |
| 144285 | Zootexniklik (ADAU) | A | Q | 15 | 710 | 710 | 0 | 5.911 |
| 144293 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 1773 | 1773 | 0 | 8.689 |
| 144317 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 885 | 885 | 0 | 10.969 |
| 144325 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 45 | 1393 | 1393 | 0 | 5.469 |
| 144333 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 1452 | 1452 | 0 | 8.672 |
| 144358 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 172 | 172 | 0 | 4.965 |
| 144366 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 179 | 179 | 0 | 5.540 |
| 144569 | Baytarlıq (ADAU) | A | Ə | 45 | 229 | 229 | 0 | 1.952 |
| 144577 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 30 | 227 | 227 | 0 | 2.083 |
| 144593 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 25 | 25 | 0 | 0.690 |
| 151178 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 25 | 593 | 593 | 0 | 6.713 |
| 151186 | Aqronomluq (LDU) | A | Ə | 25 | 525 | 525 | 0 | 3.900 |
| 151194 | Meşəçilik (LDU) | A | Ə | 25 | 467 | 467 | 0 | 2.956 |
| 151372 | Baytarlıq (LDU) | A | Ə | 25 | 65 | 65 | 0 | 0.874 |

**2017-ci il** Cədvəl 5

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111455 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 288 | 277 | 16 | 2.091 |
| 111463 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 16 | 7 | 10 | 0.250 |
| 111471 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 20 | 66 | 39 | 28 | 0.473 |
| 112751 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 180 | 137 | 64 | 1.571 |
| 142243 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 15 | 290 | 290 | 0 | 6.550 |
| 142551 | Baytarlıq (NDU) | A | Ə | 20 | 79 | 79 | 0 | 1.109 |
| 144252 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 75 | 876 | 876 | 0 | 3.891 |
| 144269 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 307 | 307 | 0 | 5.333 |
| 144277 | Aqronomluq (ADAU) | A | Ə | 45 | 1039 | 1039 | 0 | 6.675 |
| 144285 | Aqronomluq (ADAU) | A | Q | 15 | 306 | 306 | 0 | 4.343 |
| 144293 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 120 | 120 | 0 | 3.277 |
| 144317 | Aqronomluq (ADAU, (tədris ingilis dilində) | Br | Ə | 15 | 13 | 13 | 0 | 0.481 |
| 144325 | Zootexniklik (ADAU) | A | Ə | 45 | 653 | 653 | 0 | 2.668 |
| 144333 | Zootexniklik (ADAU) | A | Q | 15 | 199 | 199 | 0 | 1.866 |
| 144358 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 1061 | 1061 | 0 | 5.098 |
| 144366 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 366 | 366 | 0 | 4.823 |
| 144374 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 123 | 123 | 0 | 3.138 |
| 144382 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 45 | 604 | 604 | 0 | 2.086 |
| 144399 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 701 | 701 | 0 | 3.919 |
| 144569 | Baytarlıq (ADAU) | A | Ə | 60 | 205 | 205 | 0 | 1.343 |
| 144577 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 24 | 24 | 0 | 0.811 |
| 144585 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 30 | 200 | 200 | 0 | 1.711 |
| 151145 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 30 | 830 | 36 | 799 | 5.565 |
| 151153 | Aqronomluq (LDU) | A | Ə | 30 | 666 | 24 | 646 | 3.474 |
| 151161 | Aqronomluq (LDU) | A | Q | 15 | 273 | 1 | 273 | 3.243 |
| 151178 | Meşəçilik (LDU) | A | Ə | 30 | 524 | 17 | 511 | 2.358 |
| 151412 | Baytarlıq (LDU) | A | Ə | 30 | 98 | 13 | 87 | 0.864 |
| 157529 | Meşəçilik (QU) | Br | Ə | 15 | 697 | 0 | 697 | 8.467 |

**2018-ci il** Cədvəl 6

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111455 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 316 | 311 | 8 | 2.377 |
| 111463 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 147 | 83 | 69 | 1.946 |
| 111471 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 102 | 79 | 24 | 1.069 |

## Kənd təsərrüfatı profilli ixtisaslar statistikada

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 112857 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 270 | 210 | 97 | 2.463 |
| 142284 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 15 | 257 | 257 | 0 | 5.806 |
| 142665 | Baytarlıq (NDU) | A | Ə | 15 | 73 | 73 | 0 | 1.107 |
| 144236 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 75 | 1303 | 1303 | 0 | 5.605 |
| 144244 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 471 | 471 | 0 | 7.284 |
| 144252 | Torpaqşünaslıq və aqrokimya (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 20 | 20 | 0 | 0.363 |
| 144269 | Aqronomluq (ADAU) | A | Ə | 60 | 1260 | 1260 | 0 | 6.571 |
| 144277 | Aqronomluq (ADAU) | A | Q | 15 | 496 | 496 | 0 | 7.155 |
| 144285 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 116 | 116 | 0 | 3.381 |
| 144293 | Aqronomluq (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 38 | 38 | 0 | 0.835 |
| 144317 | Zootexniklik (ADAU) | A | Ə | 45 | 805 | 805 | 0 | 3.718 |
| 144325 | Zootexniklik (ADAU) | A | Q | 15 | 377 | 377 | 0 | 4.036 |
| 144333 | Zootexniklik (ADAU) | R | Ə | 15 | 73 | 73 | 0 | 1.352 |
| 144366 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 1270 | 1270 | 0 | 6.044 |
| 144374 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 560 | 560 | 0 | 7.673 |
| 144382 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 121 | 121 | 0 | 3.459 |
| 144399 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 45 | 854 | 854 | 0 | 3.425 |
| 144414 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 789 | 789 | 0 | 4.669 |
| 144422 | Şərabçılıq (ADAU) | A | Ə | 15 | 645 | 645 | 0 | 7.612 |
| 144617 | Baytarlıq (ADAU) | A | Ə | 60 | 261 | 261 | 0 | 1.533 |
| 144625 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 55 | 55 | 0 | 1.450 |
| 144633 | Baytarlıq (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 61 | 61 | 0 | 1.138 |
| 144641 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 45 | 243 | 243 | 0 | 1.170 |
| 144658 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 200 | 200 | 0 | 1.418 |
| 144666 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 30 | 173 | 173 | 0 | 1.005 |
| 147299 | Şərabçılıq (ATUG) | A | Ə | 20 | 41 | 14 | 29 | 0.263 |
| 147314 | Şərabçılıq (ATUG) | A | Q | 10 | 10 | 2 | 8 | 0.104 |
| 151161 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 30 | 846 | 68 | 792 | 5.092 |
| 151178 | Aqronomluq (LDU) | A | Ə | 30 | 760 | 56 | 714 | 4.103 |
| 151186 | Aqronomluq (LDU) | A | Q | 15 | 365 | 3 | 362 | 3.522 |
| 151194 | Meşəçilik (LDU) | A | Ə | 30 | 582 | 24 | 564 | 2.511 |
| 151486 | Baytarlıq (LDU) | A | Ə | 30 | 108 | 17 | 99 | 0.631 |
| 157229 | Meşəçilik (QKU) | Br | Ə | 25 | 665 | 11 | 654 | 4.737 |
| 157237 | Meşəçilik (QKU) | Br | Q | 10 | 230 | 1 | 229 | 3.647 |
| 157578 | Su bioehtiyatları və akvabitkilər (QKU) | Br | Ə | 25 | 50 | 8 | 42 | 0.183 |

**2019-cu il** Cədvəl 7

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111463 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 1199 | 330 | 872 | 12.939 |
| 111471 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 281 | 30 | 251 | 4.223 |
| 111488 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 220 | 56 | 166 | 2.793 |
| 112946 | Su bioehtiyatları və akvabitkilər (BDU) | A | Ə | 20 | 179 | 129 | 72 | 1.508 |
| 142276 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 15 | 193 | 193 | 0 | 4.410 |
| 142657 | Baytarlıq (NDU) | A | Ə | 15 | 126 | 126 | 0 | 3.072 |
| 144244 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 80 | 1455 | 1455 | 0 | 5.572 |
| 144252 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 10 | 275 | 275 | 0 | 4.913 |
| 144269 | Torpaqşünaslıq və aqrokimya (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 161 | 161 | 0 | 2.600 |
| 144277 | Aqronomluq (ADAU) | A | Ə | 65 | 1259 | 1259 | 0 | 5.597 |
| 144285 | Aqronomluq (ADAU) | A | Q | 10 | 231 | 231 | 0 | 4.269 |
| 144293 | Агрономия (ADAU) | R | Ə | 15 | 115 | 115 | 0 | 2.063 |
| 144317 | Aqronomluq (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 148 | 148 | 0 | 2.640 |
| 144325 | Zootexniklik (ADAU) | A | Ə | 50 | 689 | 689 | 0 | 2.433 |
| 144333 | Zootexniklik (ADAU) | A | Q | 10 | 146 | 146 | 0 | 1.783 |
| 144341 | Zootexniklik (ADAU) | R | Ə | 15 | 79 | 79 | 0 | 0.918 |
| 144366 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 1266 | 1266 | 0 | 5.437 |
| 144374 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 235 | 235 | 0 | 2.242 |
| 144382 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 118 | 118 | 0 | 1.904 |
| 144399 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi (ADAU) | A | Ə | 45 | 635 | 635 | 0 | 2.231 |
| 144414 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 775 | 775 | 0 | 4.314 |
| 144422 | Şərabçılıq (ADAU) | A | Ə | 30 | 715 | 715 | 0 | 3.786 |
| 144625 | Baytarlıq (ADAU) | A | Ə | 60 | 369 | 369 | 0 | 2.766 |
| 144633 | Baytarlıq (ADAU) | R | Ə | 15 | 39 | 39 | 0 | 0.965 |
| 144641 | Baytarlıq (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 60 | 60 | 0 | 1.295 |
| 144658 | Su bioehtiyatları və akvabitkilər (ADAU) | A | Ə | 45 | 290 | 290 | 0 | 1.256 |
| 144666 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 45 | 287 | 287 | 0 | 1.244 |
| 144674 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 45 | 237 | 237 | 0 | 0.977 |
| 147274 | Şərabçılıq (ATUG) | A | Ə | 10 | 260 | 20 | 244 | 3.322 |
| 151186 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 30 | 669 | 669 | 0 | 5.456 |
| 151194 | Aqronomluq (LDU) | A | Ə | 45 | 613 | 613 | 0 | 2.742 |
| 151218 | Aqronomluq (LDU) | A | Q | 10 | 146 | 146 | 0 | 2.678 |
| 151226 | Meşəçilik (LDU) | A | Ə | 45 | 409 | 409 | 0 | 1.422 |
| 151234 | Meşəçilik (LDU) | A | Q | 15 | 101 | 101 | 0 | 1.970 |
| 151486 | Baytarlıq (LDU) | A | Ə | 30 | 184 | 184 | 0 | 1.856 |
| 151494 | Bağçılıq və tərəvəzçilik (LDU) | A | Ə | 30 | 91 | 91 | 0 | 0.499 |
| 157189 | Meşəçilik (QKU) | Br | Ə | 30 | 512 | 43 | 471 | 2.314 |
| 157197 | Meşəçilik (QKU) | Br | Q | 10 | 141 | 3 | 141 | 2.250 |
| 157529 | Su bioehtiyatları və akvabitkilər (QKU) | Br | Ə | 20 | 96 | 59 | 44 | 0.611 |

**2020-ci il** Cədvəl 8

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111439 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 1403 | 683 | 997 | 17.336 |
| 111447 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 284 | 80 | 235 | 3.995 |
| 111455 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 290 | 172 | 237 | 6.246 |
| 112816 | Su bioehtiyatları və akvakultura (BDU) | A | Ə | 20 | 319 | 211 | 204 | 6.249 |
| 142268 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 15 | 163 | 163 | 0 | 2.784 |
| 142681 | Baytarlıq təbabəti (NDU) | A | Ə | 15 | 101 | 101 | 0 | 2.840 |
| 144122 | Aqromühəndislik (ADAU) | A | Q | 15 | 27 | 27 | 0 | 0.580 |
| 144139 | Aqromühəndislik (ADAU) | A | Ə | 60 | 145 | 145 | 0 | 0.418 |
| 144147 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 14 | 14 | 0 | 0.193 |
| 144277 | Aqronomluq (ADAU) | A | Q | 10 | 350 | 350 | 0 | 9.090 |
| 144285 | Aqronomluq (ADAU) | A | Ə | 80 | 983 | 983 | 0 | 4.034 |
| 144293 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 170 | 170 | 0 | 3.723 |
| 144317 | Aqronomluq (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 170 | 170 | 0 | 3.160 |
| 144325 | Balıqçılıq (ADAU) | A | Ə | 45 | 719 | 719 | 0 | 2.902 |
| 144333 | Meşəçilik (ADAU) | A | Ə | 45 | 943 | 943 | 0 | 3.999 |
| 144341 | Şərabçılıq (ADAU) | A | Ə | 45 | 857 | 857 | 0 | 3.590 |
| 144358 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 80 | 1498 | 1498 | 0 | 5.308 |
| 144366 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 10 | 302 | 302 | 0 | 5.836 |
| 144374 | Torpaqşünaslıq və aqrokimya (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 190 | 190 | 0 | 2.836 |
| 144414 | Zoomühəndislik (ADAU) | A | Ə | 50 | 870 | 870 | 0 | 3.410 |
| 144422 | Zoomühəndislik (ADAU) | A | Q | 10 | 207 | 207 | 0 | 3.105 |
| 144439 | Zoomühəndislik (ADAU) | R | Ə | 15 | 121 | 121 | 0 | 1.811 |
| 144641 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 45 | 133 | 133 | 0 | 0.774 |
| 144658 | Baytarlıq təbabəti (ADAU) | A | Ə | 90 | 285 | 285 | 0 | 1.780 |
| 144666 | Baytarlıq təbabəti (ADAU) | R | Ə | 15 | 34 | 34 | 0 | 0.821 |
| 144674 | Baytarlıq təbabəti (ADAU, tədris ingilis dilində) | Br | Ə | 15 | 70 | 70 | 0 | 1.378 |
| 144699 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 60 | 135 | 135 | 0 | 0.684 |
| 144714 | Su bioehtiyatları və akvakultura (ADAU) | A | Ə | 60 | 184 | 184 | 0 | 0.738 |
| 147258 | Şərabçılıq (ATUG) | Br | Ə | 80 | 653 | 288 | 479 | 1.342 |
| 151186 | Aqronomluq (LDU) | A | Ə | 50 | 705 | 705 | 0 | 2.994 |
| 151194 | Aqronomluq (LDU) | A | Q | 15 | 203 | 203 | 0 | 2.991 |
| 151218 | Meşəçilik (LDU) | A | Ə | 45 | 500 | 500 | 0 | 2.033 |
| 151226 | Meşəçilik (LDU) | A | Q | 10 | 183 | 183 | 0 | 4.642 |
| 151234 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 30 | 635 | 635 | 0 | 5.286 |
| 151526 | Baytarlıq təbabəti (LDU) | A | Ə | 30 | 166 | 166 | 0 | 2.382 |
| 151534 | Bitki mühafizəsi (LDU) | A | Ə | 25 | 81 | 81 | 0 | 0.682 |
| 152174 | Şərabçılıq (AKU) | A | Ə | 25 | 502 | 109 | 438 | 3.646 |
| 152182 | Şərabçılıq (AKU) | A | Q | 10 | 88 | 21 | 78 | 1.691 |
| 157189 | Meşəçilik (QKU) | Br | Ə | 40 | 642 | 196 | 515 | 3.204 |
| 157197 | Meşəçilik (QKU) | Br | Q | 10 | 194 | 52 | 170 | 3.901 |
| 157578 | Su bioehtiyatları və akvakultura (QKU) | Br | Ə | 15 | 171 | 84 | 128 | 2.846 |
| 158477 | Baytarlıq təbabəti (XU) | Br | Ə | 15 | 82 | 58 | 48 | 2.101 |

**2021-ci il** Cədvəl 9

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111422 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 1536 | 878 | 982 | 19.663 |
| 111439 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 361 | 160 | 263 | 5.413 |
| 111447 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 302 | 193 | 254 | 6.554 |
| 112824 | Bitki mühafizəsi (BDU) | A | Ə | 20 | 139 | 82 | 86 | 2.385 |
| 112832 | Su bioehtiyatları və akvakultura (BDU) | A | Ə | 20 | 224 | 159 | 115 | 3.737 |
| 142276 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 10 | 254 | 254 | 0 | 6.771 |
| 142284 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Q | 10 | 67 | 67 | 0 | 1.089 |
| 142779 | Baytarlıq təbabəti (NDU) | A | Ə | 15 | 128 | 128 | 0 | 3.928 |
| 144114 | Aqromühəndislik (ADAU) | A | Ə | 30 | 638 | 638 | 0 | 5.252 |
| 144122 | Aqromühəndislik (ADAU) | Br | Ə | 45 | 1102 | 1102 | 0 | 5.331 |
| 144244 | Aqronomluq (ADAU) | A | Ə | 30 | 784 | 784 | 0 | 6.463 |
| 144252 | Aqronomluq (ADAU) | A | Q | 15 | 360 | 360 | 0 | 5.310 |
| 144269 | Aqronomluq (ADAU) | Br | Ə | 60 | 1653 | 1653 | 0 | 5.929 |
| 144277 | Aqronomluq (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 328 | 328 | 0 | 4.615 |
| 144285 | Balıqçılıq (ADAU) | A | Ə | 45 | 971 | 971 | 0 | 2.785 |
| 144293 | Meşəçilik (ADAU) | A | Ə | 45 | 1197 | 1197 | 0 | 3.962 |
| 144317 | Şərabçılıq (ADAU) | A | Ə | 30 | 1066 | 1066 | 0 | 4.970 |
| 144325 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 80 | 1812 | 1812 | 0 | 4.862 |
| 144333 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 15 | 357 | 357 | 0 | 3.737 |
| 144341 | Torpaqşünaslıq və aqrokimya (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 369 | 369 | 0 | 4.777 |
| 144374 | Zoomühəndislik (ADAU) | A | Q | 15 | 299 | 299 | 0 | 2.905 |
| 144382 | Zoomühəndislik (ADAU) | Br | Ə | 75 | 1211 | 1211 | 0 | 2.229 |
| 144569 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 15 | 132 | 132 | 0 | 1.571 |
| 144577 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Q | 15 | 45 | 45 | 0 | 0.431 |
| 144585 | Baytarlıq təbabəti (ADAU) | Br | Ə | 120 | 359 | 359 | 0 | 1.558 |
| 144593 | Baytarlıq təbabəti (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 84 | 84 | 0 | 1.480 |
| 144617 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 160 | 160 | 0 | 1.060 |
| 144625 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 116 | 116 | 0 | 0.769 |
| 144633 | Su bioehtiyatları və akvakultura (ADAU) | A | Ə | 60 | 175 | 175 | 0 | 0.532 |
| 147258 | Şərabçılıq (ATUG) | Br | Ə | 100 | 1092 | 553 | 803 | 1.379 |
| 151153 | Aqromühəndislik (LDU) | A | Ə | 30 | 20 | 20 | 0 | 0.281 |
| 151218 | Aqronomluq (LDU) | A | Ə | 60 | 969 | 969 | 0 | 2.993 |
| 151226 | Aqronomluq (LDU) | A | Q | 15 | 223 | 223 | 0 | 2.973 |
| 151234 | Meşəçilik (LDU) | A | Ə | 60 | 752 | 752 | 0 | 1.880 |
| 151242 | Meşəçilik (LDU) | A | Q | 15 | 227 | 227 | 0 | 4.102 |
| 151259 | Şərabçılıq (LDU) | A | Ə | 25 | 407 | 407 | 0 | 1.882 |
| 151267 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 50 | 762 | 762 | 0 | 3.108 |
| 151275 | Zoomühəndislik (LDU) | A | Ə | 30 | 485 | 485 | 0 | 2.185 |
| 151591 | Baytarlıq təbabəti (LDU) | A | Ə | 30 | 196 | 196 | 0 | 2.748 |

## Kənd təsərrüfatı profilli ixtisaslar statistikada

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 152174 | Şərabçılıq (AKU) | A | Ə | 60 | 804 | 272 | 621 | 2.430 |
| 152182 | Şərabçılıq (AKU) | A | Q | 10 | 216 | 59 | 177 | 3.029 |
| 157189 | Meşəçilik (QKU) | Br | Ə | 40 | 851 | 385 | 605 | 4.098 |
| 157197 | Meşəçilik (QKU) | Br | Q | 10 | 260 | 118 | 198 | 4.827 |
| 157561 | Su bioehtiyatları və akvakultura (QKU) | Br | Ə | 20 | 166 | 86 | 113 | 1.819 |
| 158485 | Baytarlıq təbabəti (XU) | Br | Ə | 25 | 174 | 142 | 75 | 2.500 |

**2022-ci il**

Cədvəl 10

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111463 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 30 | 875 | 363 | 641 | 11.457 |
| 111471 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Q | 15 | 254 | 75 | 198 | 4.324 |
| 111488 | Torpaqşünaslıq və aqrokimya (BDU) | R | Ə | 25 | 273 | 125 | 235 | 5.159 |
| 112832 | Bitki mühafizəsi (BDU) | A | Ə | 20 | 262 | 197 | 140 | 3.959 |
| 112849 | Su bioehtiyatları və akvakultura (BDU) | A | Ə | 20 | 229 | 161 | 117 | 3.076 |
| 112857 | Su bioehtiyatları və akvakultura (BDU) | R | Ə | 15 | 77 | 57 | 49 | 1.689 |
| 142324 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 10 | 235 | 235 | 0 | 6.294 |
| 142332 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Q | 10 | 159 | 159 | 0 | 2.527 |
| 142851 | Baytarlıq təbabəti (NDU) | A | Ə | 15 | 128 | 128 | 0 | 3.665 |
| 144114 | Aqromühəndislik (ADAU) | A | Ə | 40 | 871 | 871 | 0 | 6.277 |
| 144122 | Aqromühəndislik (ADAU) | A | Q | 10 | 196 | 196 | 0 | 5.938 |
| 144139 | Aqromühəndislik (ADAU) | A | Ə | 30 | 504 | 504 | 0 | 3.824 |
| 144147 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 203 | 203 | 0 | 2.881 |
| 144277 | Aqronomluq (ADAU) | A | Ə | 70 | 1522 | 1522 | 0 | 5.597 |
| 144285 | Aqronomluq (ADAU) | A | Q | 10 | 410 | 410 | 0 | 9.711 |
| 144293 | Aqronomluq (ADAU) | A | Ə | 30 | 585 | 585 | 0 | 4.791 |
| 144317 | Aqronomluq (ADAU) | R | Ə | 15 | 228 | 228 | 0 | 3.029 |
| 144325 | Aqronomluq (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 242 | 242 | 0 | 3.537 |
| 144333 | Balıqçılıq (ADAU) | A | Ə | 45 | 1031 | 1031 | 0 | 3.356 |
| 144341 | Meşəçilik (ADAU) | A | Ə | 45 | 1238 | 1238 | 0 | 4.447 |
| 144358 | Şərabçılıq (ADAU) | A | Ə | 30 | 1010 | 1010 | 0 | 5.202 |
| 144366 | Şərabçılıq (ADAU) | R | Ə | 15 | 182 | 182 | 0 | 1.695 |
| 144374 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 100 | 1764 | 1764 | 0 | 4.021 |
| 144382 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 10 | 435 | 435 | 0 | 7.025 |
| 144399 | Torpaqşünaslıq və aqrokimya (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 229 | 229 | 0 | 2.684 |
| 144439 | Zoomühəndislik (ADAU) | A | Ə | 90 | 1217 | 1217 | 0 | 2.063 |
| 144447 | Zoomühəndislik (ADAU) | A | Q | 10 | 306 | 306 | 0 | 5.253 |
| 144455 | Зооинженерия (ADAU) | R | Ə | 15 | 187 | 187 | 0 | 1.633 |
| 144674 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 30 | 116 | 116 | 0 | 0.817 |
| 144682 | Baytarlıq təbabəti (ADAU) | A | Ə | 150 | 341 | 341 | 0 | 1.391 |
| 144699 | Ветеринарная медицина (ADAU) | R | Ə | 15 | 41 | 41 | 0 | 1.129 |
| 144714 | Baytarlıq təbabəti (tədris ingilis dilində, ADAU) | Br | Ə | 15 | 80 | 80 | 0 | 1.838 |

## Kənd təsərrüfatı profilli ixtisaslar statistikada

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 144722 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 159 | 159 | 0 | 1.301 |
| 144739 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 93 | 93 | 0 | 0.846 |
| 144747 | Su bioehtiyatları və akvakultura (ADAU) | A | Ə | 30 | 145 | 145 | 0 | 0.995 |
| 147299 | Şərabçılıq (ATUG) | Br | Ə | 110 | 1343 | 535 | 1079 | 1.734 |
| 151153 | Aqromühəndislik (LDU) | A | Ə | 30 | 391 | 391 | 0 | 2.647 |
| 151218 | Aqronomluq (LDU) | A | Ə | 70 | 1205 | 1205 | 0 | 3.243 |
| 151226 | Aqronomluq (LDU) | A | Q | 10 | 414 | 414 | 0 | 7.800 |
| 151234 | Meşəçilik (LDU) | A | Ə | 70 | 1138 | 1138 | 0 | 2.513 |
| 151242 | Meşəçilik (LDU) | A | Q | 10 | 376 | 376 | 0 | 8.753 |
| 151259 | Şərabçılıq (LDU) | A | Ə | 30 | 840 | 840 | 0 | 3.468 |
| 151267 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 70 | 1068 | 1068 | 0 | 3.043 |
| 151275 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Q | 10 | 328 | 328 | 0 | 4.203 |
| 151283 | Zoomühəndislik (LDU) | A | Ə | 30 | 877 | 877 | 0 | 3.752 |
| 151623 | Bağçılıq və tərəvəzçilik (LDU) | A | Ə | 30 | 49 | 49 | 0 | 0.266 |
| 151631 | Baytarlıq təbabəti (LDU) | A | Ə | 30 | 214 | 214 | 0 | 3.246 |
| 151648 | Bitki mühafizəsi (LDU) | A | Ə | 25 | 58 | 58 | 0 | 0.400 |
| 152166 | Şərabçılıq (AKU) | A | Ə | 90 | 1021 | 249 | 878 | 2.505 |
| 152174 | Şərabçılıq (AKU) | A | Q | 10 | 232 | 60 | 195 | 4.520 |
| 157197 | Meşəçilik (QKU) | Br | Ə | 40 | 742 | 277 | 570 | 3.524 |
| 157212 | Meşəçilik (QKU) | Br | Q | 10 | 252 | 106 | 197 | 5.407 |
| 157626 | Su bioehtiyatları və akvakultura (QKU) | Br | Ə | 20 | 182 | 138 | 81 | 1.975 |
| 158485 | Baytarlıq təbabəti (XU) | Br | Ə | 25 | 218 | 184 | 90 | 2.985 |

**2023-cü il**

Cədvəl 11

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 111471 | Torpaqşünaslıq və aqrokimya (BDU) | A | Ə | 50 | 1273 | 617 | 814 | 9.645 |
| 112857 | Bitki mühafizəsi (BDU) | A | Ə | 20 | 334 | 261 | 167 | 5.408 |
| 112865 | Su bioehtiyatları və akvakultura (BDU) | A | Ə | 20 | 321 | 240 | 152 | 4.937 |
| 142332 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Ə | 20 | 207 | 207 | 0 | 2.622 |
| 142349 | Torpaqşünaslıq və aqrokimya (NDU) | A | Q | 10 | 168 | 168 | 0 | 2.179 |
| 142843 | Baytarlıq təbabəti (NDU) | A | Ə | 30 | 148 | 148 | 0 | 2.024 |
| 144114 | Aqromühəndislik (ADAU) | A | Ə | 50 | 1445 | 1445 | 0 | 7.541 |
| 144122 | Aqromühəndislik (ADAU) | A | Q | 10 | 354 | 354 | 0 | 9.718 |
| 144139 | Aqromühəndislik (ADAU) | A | Ə | 30 | 594 | 594 | 0 | 4.983 |
| 144147 | Aqromühəndislik (ADAU) | R | Ə | 15 | 265 | 265 | 0 | 3.627 |
| 144285 | Aqronomluq (ADAU) | A | Ə | 80 | 1693 | 1693 | 0 | 4.926 |
| 144293 | Aqronomluq (ADAU) | A | Q | 10 | 377 | 377 | 0 | 11.793 |
| 144317 | Aqronomluq (ADAU) | A | Ə | 30 | 555 | 555 | 0 | 4.928 |
| 144325 | Aqronomluq (ADAU) | R | Ə | 20 | 271 | 271 | 0 | 2.454 |
| 144333 | Aqronomluq (tədris ingilis dilində) (ADAU) | Br | Ə | 20 | 338 | 338 | 0 | 4.297 |
| 144341 | Balıqçılıq (ADAU) | A | Ə | 45 | 949 | 949 | 0 | 2.812 |
| 144358 | Meşəçilik (ADAU) | A | Ə | 30 | 1122 | 1122 | 0 | 6.187 |

## Kənd təsərrüfatı profilli ixtisaslar statistikada

| İxt. kodu | İXTİSASIN ADI | B | TF | Plan | Ərizələrin sayı | | | Müsa-biqə |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bt | DS | Ö | |
| 144366 | Şərabçılıq (ADAU) | A | Ə | 30 | 984 | 984 | 0 | 4.761 |
| 144374 | Şərabçılıq (ADAU) | R | Ə | 15 | 198 | 198 | 0 | 1.725 |
| 144382 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Ə | 100 | 1805 | 1805 | 0 | 3.609 |
| 144399 | Torpaqşünaslıq və aqrokimya (ADAU) | A | Q | 10 | 293 | 293 | 0 | 4.665 |
| 144414 | Torpaqşünaslıq və aqrokimya (tədris ingilis dilində) (ADAU) | Br | Ə | 20 | 353 | 353 | 0 | 3.564 |
| 144447 | Zoomühəndislik (ADAU) | A | Ə | 90 | 1258 | 1258 | 0 | 2.041 |
| 144455 | Zoomühəndislik (ADAU) | A | Q | 10 | 272 | 272 | 0 | 4.345 |
| 144463 | Zoomühəndislik (ADAU) | R | Ə | 15 | 201 | 201 | 0 | 1.761 |
| 144666 | Bağçılıq və tərəvəzçilik (ADAU) | A | Ə | 20 | 181 | 181 | 0 | 2.193 |
| 144674 | Baytarlıq təbabəti (ADAU) | A | Ə | 150 | 384 | 384 | 0 | 1.592 |
| 144682 | Baytarlıq təbabəti (ADAU) | R | Ə | 15 | 69 | 69 | 0 | 1.455 |
| 144699 | Baytarlıq təbabəti (tədris ingilis dilində) (ADAU) | Br | Ə | 15 | 119 | 119 | 0 | 3.101 |
| 144714 | Bitki mühafizəsi (ADAU) | A | Ə | 30 | 194 | 194 | 0 | 1.788 |
| 147339 | Şərabçılıq (ATUG) | Br | Ə | 110 | 1188 | 583 | 886 | 1.262 |
| 151153 | Aqromühəndislik (LDU) | A | Ə | 30 | 794 | 794 | 0 | 5.321 |
| 151234 | Aqronomluq (LDU) | A | Ə | 70 | 1296 | 1296 | 0 | 3.510 |
| 151242 | Aqronomluq (LDU) | A | Q | 15 | 389 | 389 | 0 | 6.839 |
| 151259 | Meşəçilik (LDU) | A | Ə | 70 | 1004 | 1004 | 0 | 2.147 |
| 151267 | Meşəçilik (LDU) | A | Q | 15 | 319 | 319 | 0 | 5.775 |
| 151275 | Şərabçılıq (LDU) | A | Ə | 30 | 731 | 731 | 0 | 2.766 |
| 151283 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Ə | 70 | 1086 | 1086 | 0 | 2.804 |
| 151291 | Torpaqşünaslıq və aqrokimya (LDU) | A | Q | 15 | 315 | 315 | 0 | 3.132 |
| 151315 | Zoomühəndislik (LDU) | A | Ə | 30 | 772 | 772 | 0 | 3.124 |
| 151664 | Bağçılıq və tərəvəzçilik (LDU) | A | Ə | 20 | 120 | 120 | 0 | 1.228 |
| 151672 | Baytarlıq təbabəti (LDU) | A | Ə | 30 | 244 | 244 | 0 | 3.522 |
| 152166 | Şərabçılıq (AKU) | A | Ə | 100 | 988 | 324 | 809 | 1.911 |
| 152174 | Şərabçılıq (AKU) | A | Q | 10 | 180 | 64 | 139 | 3.576 |
| 152182 | Torpaqşünaslıq və aqrokimya (AKU) | A | Ə | 20 | 1412 | 361 | 1203 | 14.379 |
| 157212 | Meşəçilik (QKU) | Br | Ə | 45 | 651 | 324 | 428 | 3.005 |
| 157229 | Meşəçilik (QKU) | Br | Q | 10 | 265 | 147 | 195 | 6.597 |
| 157537 | Su bioehtiyatları və akvakultura (QKU) | Br | Ə | 30 | 233 | 164 | 124 | 1.854 |
| 158493 | Baytarlıq təbabəti (XU) | Br | Ə | 25 | 297 | 254 | 101 | 4.323 |

*İxtisarlar:* ***Qəbulun forması:*** *Bt – bütövlükdə, DS – dövlət sifarişi əsasında, Ö – ödənişli əsaslarla*
***B – bölmə:*** *A - Azərbaycan, R – rus, Br - Birgə*
***TF – təhsil forması:*** *Ə – əyani, Q – qiyabi, Ə/Q - əyani/qiyabi*
***Ali məktəblər:*** *ADAU - Azərbaycan Dövlət Aqrar Universiteti, BDU - Bakı Dövlət Universiteti, NDU - Naxçıvan Dövlət Universiteti, LDU - Lənkəran Dövlət Universiteti, ATUG - Azərbaycan Texnologiya Universiteti, QKU - Qərbi Kaspi Universiteti, XU - Xəzər Universiteti*

Cədvəllərdən göründüyü kimi, kənd təsərrüfatı profilli ixtisasların və bu ixtisaslar üzrə ayrılan plan yerlərinin böyük hissəsi Azərbaycan Dövlət Aqrar Universitetinin payına düşür (kənd təsərrüfatı profilli ixtisaslar üzrə ayrılan yerlərin 2012-ci ildə 85.89%-i, 2013-cü ildə 81.98%-i, 2014-cü ildə 82.57%-i, 2015-ci ildə 76.74%-i, 2016-cı ildə 67.16%-i, 2017-ci ildə 65.38%-i, 2018-ci ildə 65.67%-i, 2019-cu ildə 64.09%-i, 2020-ci ildə 60.90%, 2021-ci ildə 52.46%, 2022-ci ildə 50.84%, 2023-cü ildə 49.00%). Ümumiyyətlə, kənd təsərrüfatı profilli ixtisaslar üzrə ayrılan yerlər bu təhsil müəssisəsinin ümumi qəbul planının 2012-ci ildə 34.97%-ni, 2013-cü ildə 29.84%-ni, 2014-cü ildə 28.13%-ni, 2015-ci ildə 25.88%-ni, 2016-cı ildə 31.14%-ni, 2017-ci ildə 38.64%-ni, 2018-ci ildə 45.83%-ni, 2019-cu ildə 47.47%-ni, 2020-ci 51.59%-ni, 2021-ci ildə 52.46%-ni, 2022-ci ildə 50.84%-ni, 2023-cü ildə 49.00%-ni təşkil etmişdir.

2009-2023-cü illərdə kənd təsərrüfatı profilli ixtisaslarda ümumi müsabiqə vəziyyətinin dinamikası 1 saylı qrafikdə göstərilmişdir. Qrafikdən aydın olduğu kimi 2015-ciilədək bu ixtisaslar üzrə müsabiqə vəziyyəti yaranmamış, 2015-ci ildə isə bu ixtisaslar üzrə birdən-birə yüksək müsabiqə vəziyyəti yaranmışdır. Bu tendensiya IV qrupdan I qrupa keçirilən “Torpaqşünaslıq və aqrokimya”, “Balıqçılıq və balıqçılıq təsərrüfatı işi”, “Meşəçilik”, “Aqronomluq” və “Zootexniklik” ixtisaslarında özünü daha qabarıq şəkildə göstərir. Əvvəlki illərdən fərqli olaraq 2015-ci və 2016-cı illərdə qeyd olunan ixtisaslar üzrə plan yerləri tam şəkildə dolmuşdur. Qeyd edək ki, bu ixtisaslar üzrə 2014-cü ildə ayrılan plan yerlərinin cəmi 16.51%-i dolmuş, hətta “Balıqçılıq və balıqçılıq təsərrüfatı işi”, “Meşəçilik” və “Zootexniklik” ixtisaslarına bir nəfər belə qəbul olunmamışdı. 2017-ci ildə müsabiqə vəziyyəti 2016-cı illə müqayisədə təxminən 2 dəfə azalmışdır. Bunun əsas səbəbi isə, 2017-ci ildə Təhsil Nazirliyinin müraciətinə əsasən kənd təsərrüfatı profilli ixtisaslarla yanaşı bir sıra digər ixtisasların da müsabiqə şərtlərinin aşağı salınması olmuşdur. Nəticə etibarilə əvvəlki illərdən fərqli olaraq, zəif nəticə göstərən abituriyentlər kənd təsərrüfatı profilli ixtisaslarla yanaşı bir sıra digər ixtisasları da seçə bilmişlər. 2018 və 2019-cu illərdə ərizələrin sayının artmasına baxmayaraq qəbul planının da artması nəticəsində müsabiqə vəziyyəti 2017-ci illə müqayisədə heç dəyişməmişdir. Nəzərinizə çatdıraq ki, bu illərdə də Təhsil Nazirliyinin müraciətinə əsasən kənd təsərrüfatı profilli ixtisaslarla yanaşı bir sıra digər ixtisasların da müsabiqə şərtləri aşağı salınmışdır. 2020-ci ildə isə müsabiqə vəziyyəti bir qədər aşağı düşmüşdür. Belə ki, 2019-cu illə müqayisədə ərizələrin sayı 0.33%,

plan yerlərinin sayı isə 20.91% artmışdır. Göründüyü kimi plan yerlərinin sayı ərizələrin sayı ilə müqayisədə daha çox artmış və nəticədə müsabiqə vəziyyətinin aşağı düşməsinə səbəb olmuşdur. 2021-ci ildə müsabiqə vəziyyəti bir qədər artmış, 2022-ci ildə yenidən azalmış, 2023-cü ildə isə artaraq 2021-ci ildəki vəziyyətə qayıtmışdır.

**Kənd təsərrüfatı profilli ixtisaslarda müsabiqə vəziyyətinin dinamikası**




Qrafik 1

2015-ci ilədək kənd təsərrüfatı profilli ixtisaslara qızların istəyi oğlanlara nisbətən daha yüksək olmuşdur (bax: cədvəl 12). 2015-ci ildən etibarən isə bu tendensiya oğlanların xeyrinə dəyişmiş və bu ixtisaslara 2015-ci ildə ərizə verənlərin 64.40%-ni, 2016-cı ildə 63.50%-ni, 2017-ci ildə 68.08%-ni, 2018-ci ildə 66.38%-ni, 2019-cu ildə 64.32%-ni, 2020-ci ildə 69.47%-ni, 2021-ci ildə 67.78%-ni, 2022-ci ildə 65.85%-ni, 2023-cü ildə 63.57%-ni oğlanlar təşkil etmişdir. Bunun səbəbi daha çox 2015-ci ildə bəzi kənd təsərrüfatı ixtisaslarının IV qrupdan I qrupa keçirilməsi ilə əlaqədar olub. Belə ki, I qrupa, bir qayda olaraq, oğlan abituriyentlər daha çox ərizə verirlər. Nəticədə 2015-ci ildən etibarən kənd təsərrüfatı profilli ixtisasları ərizələrində qeyd edən abituriyentlərin içərisində oğlan abituriyentlərin payı daha çox olmuşdur.

Cədvəl 12

## KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARI ƏRİZƏLƏRİNDƏ GÖSTƏRƏN ABİTURİYENTLƏRİN VƏ SUBBAKALAVRLARIN SAYI

| | Cəmi | Oğlanlar | Qızlar |
|---|---|---|---|
| 2009 | 1071 | 540 (50.42) | 531 (49.58) |
| 2010 | 1070 | 480 (44.86) | 590 (55.14) |
| 2011 | 1161 | 532 (45.82) | 629 (54.18) |
| 2012 | 1317 | 542 (41.15) | 775 (58.85) |
| 2013 | 936 | 389 (41.56) | 547 (58.44) |
| 2014 | 916 | 445 (48.58) | 471 (51.42) |
| 2015 | 2980 | 1919 (64.40) | 1061 (35.60) |
| 2016 | 3731 | 2369 (63.50) | 1362 (36.50) |
| 2017 | 3477 | 2367 (68.08) | 1110 (31.92) |
| 2018 | 4304 | 2857 (66.38) | 1447 (33.62) |
| 2019 | 4535 | 2917 (64.32) | 1618 (35.68) |
| 2020 | 4550 | 3161 (69.47) | 1389 (30.53) |
| 2021 | 4982 | 3377 (67.78) | 1605 (32.22) |
| 2022 | 5265 | 3467 (65.85) | 1798 (34.15) |
| 2023 | 5830 | 3706 (63.57) | 2124 (36.43) |

## I və IV ixtisas qrupları üzrə ixtisas seçimi mərhələsində iştirak edənlər arasında kənd təsərrüfatı profilli ixtisasları seçənlərin payı (%-lə)




Şəkil 3

## I və IV ixtisas qrupları üzrə ixtisas seçimi mərhələsində iştirak edənlər arasında kənd təsərrüfatı profilli ixtisasları seçənlərin payı (%-lə)




Şəkil 4

2023-cü ildə bölgələr arasında kənd təsərrüfatı profilli ixtisaslara daha çox Gəncənin və ətraf rayonların abituriyentləri üstünlük vermişlər (bax: şəkil 3). İqtisadi rayonlar üzrə baxdıqda da (4 saylı şəkil) eyni mənzərəni görürük. Gəncə-Daşkəsən iqtisadi rayonunun abituriyentlərinin 36%-dən çoxunun kənd təsərrüfatı profilli ixtisasları seçdiyini müşahidə edirik. Bu cür vəziyyət daha çox kənd təsərrüfatı profilli ixtisaslar üzrə qəbul aparılan 8 ali təhsil müəssisəsindən ikisinin (Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Texnologiya Universitetinin) Gəncə şəhərində yerləşməsi ilə əlaqədardır. Regionlarda yaşayan abituriyentlər daha çox Bakıda yerləşən və yaşadıqları yerə yaxın olan ali təhsil müəssisələrində təhsillərini davam etdirməyə üstünlük verirlər. Kənd təsərrüfatı profilli ixtisaslara qəbulda Gəncə şəhərinin və ətraf rayonların digər regionların abituriyentlərindən daha fəal olmaları bununla əlaqədardır. Ümumiyyətlə, gələcəkdə digər bölgələrdə də kənd təsərrüfatı profilli ixtisasların tədris olunduğu ali təhsil müəssisələrinin fəaliyyət göstərməsi məqsədəuyğun olardı. Bu addım əsas məşğuliyyəti kənd təsərrüfatı olan rayonlarda sahə üzrə ixtisaslı kadrlara olan tələbatın ödənilməsinə və kənd təsərrüfatının inkişafına təkan vermiş olar.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə abituriyentlərin balları hesablanmış və əldə edilən ballar seçməsi artan istiqamətdə sıralanmışdır. Sonra hər bir ixtisas qrupu daxilində balların müşahidə edilən qiymətlər diapazonu müəyyən edilmişdir. Həmin diapazon bərabər intervallara bölünərək hər bir interval üçün balı həmin intervalda yerləşən abituriyentlərin sayı (tezliklər) hesablanmışdır. Tezliklərin abituriyentlərin ümumi sayına nisbəti əsasında nisbi tezliklər müəyyənləşdirilmişdir.

Qəbul imtahanlarında iştirak edən abituriyentlərin nəticələri əsasında hesablanmış bal intervalları və uyğun nisbi tezliklər statistik sıra adlanır. Çox vaxt statistik sıra qrafik şəkildə təsvir edilir və bu, histoqram adlanır.Qeyd etmək lazımdır ki, təcrübədə simmetrik, sağtərəfli (müsbət) və soltərəfli (mənfi) asimmetriyalı histoqramlara rast gəlmək mümkündür.

Histoqramları sağtərəfli asimmetriyalı seçmələrdə ortastatistik nəticə göstərən abituriyentə nəzərən zəif nəticə göstərənlərin sayı (rastgəlmə ehtimalı) yüksək nəticə göstərənlərin sayından çox, soltərəfli asimmetriyaya malik seçmələrdə azdır. Simmetrik histoqramlarda isə ortastatistik abituriyentə nəzərən yüksək və aşağı nəticə göstərən abituriyentlərin rastgəlmə ehtimalı eynidir.

2-11 saylı qrafiklərdə 2014-2023-cü illərdə abituriyentlərin kənd təsərrüfatı profilli ixtisaslara qəbulda topladıqları balların N paylanma histoqramları təsvir edilmişdir. Onların üzərində riyazi gözləmə (orta bal) M və abituriyentlər seçməsini sayca iki bərabər hissəyə ayıran bal - mediana Me qeyd olunmuşdur. Abituriyentlərin ballarının paylanma histoqramlarının hamısı sağtərəfli asimmetriyaya malikdir. Bu o deməkdir

ki, orta nəticə göstərən ortastatistik abituriyentə nəzərən aşağı nəticə göstərənlər sayca üstünlük təşkil edir.

Təqdim edilmiş qrafiklərin müqayisəli təhlili göstərir ki, son illər kənd təsərrüfatı profilli ixtisasları daha çox zəif hazırlıqlı gənclər seçir. Bunun nəticəsində onların təmsil edildiyi aşağı bal intervallarında abituriyentlərin rastgəlmə tezliyi artmışdır. 2015-ci ildən etibarən kənd təsərrüfatı profilli ixtisasları seçənlərin arasında orta və yüksək nəticə göstərənlərin nisbi sayı azalsa da, onların mütləq sayı artmışdır. Belə ki, 2014-cü ildə ən azı 200 bal toplayanların sayı 619-a, ən azı 300 bal toplayanların isə 266-ya bərabər olduğu halda, 2015-ci ildə bu rəqəmlər, müvafiq olaraq, 1128-ə və 341-ə, 2016-cı ildə 1681-ə və 545-ə, 2017-ci ildə 1607-ə və 596-ya, 2018-ci ildə 2262-ə və 1005-ə, 2019-cu ildə 2530-a və 717-yə, 2020-ci ildə 2483-ə və 298-ə, 2021-ci ildə 2747-yə və 278-ə, 2022-ci ildə 2636-ya və 391-ə, 2023-cü ildə isə 2716-ya və 383-ə bərabər olmuşdur. Son dörd ildə 300-dən yüksək bal toplayanların həm mütləq sayı, həm də nisbi sayı əvvəlki illərlə müqayisədə azdır.

## KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARI ƏRİZƏLƏRİNDƏ GÖSTƏRƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA HİSTOQRAMLARI

**2014-cü il** Qrafik 2

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 237.95 |
| Riyazi gözləmə (M) | : 263.09 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 98.80 | Maksimal qiymət | : 665 |
| Moda | : 170 | Abituriyentlərin sayı | : 916 |



**2015-ci il** Qrafik 3

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 189.54 |
| Riyazi gözləmə (M) | : 215.89 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 75.61 | Maksimal qiymət | : 677 |
| Moda | : 170 | Abituriyentlərin sayı | : 2980 |




**2016-cı il** Qrafik 4

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 194.64 |
| Riyazi gözləmə (M) | : 223.29 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 72.64 | Maksimal qiymət | : 680 |
| Moda | : 170 | Abituriyentlərin sayı | : 3731 |



**2017-ci il** Qrafik 5

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 195.79 |
| Riyazi gözləmə (M) | : 226.63 | Minimal qiymət | : 134 |
| Ortakvadratik meyil | : 75.84 | Maksimal qiymət | : 686 |
| Moda | : 170 | Abituriyentlərin sayı | : 3477 |




**2018-ci il** Qrafik 6

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 205.90 |
| Riyazi gözləmə (M) | : 243.00 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 89.77 | Maksimal qiymət | : 695 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 4304 |



**2019-cu il** Qrafik 7

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 210.61 |
| Riyazi gözləmə (M) | : 233.05 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 73.71 | Maksimal qiymət | : 669.2 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 4408 |




**2020-ci il** Qrafik 8

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 208.01 |
| Riyazi gözləmə (M) | : 219.79 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 57.38 | Maksimal qiymət | : 664.6 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 4358 |



**2021-ci il** Qrafik 9

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 210.25 |
| Riyazi gözləmə (M) | : 219.88 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 53.62 | Maksimal qiymət | : 691.1 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 4673 |




**2022-ci il** Qrafik 10

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 205.14 |
| Riyazi gözləmə (M) | : 219.65 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 63.61 | Maksimal qiymət | : 690.1 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 4855 |



**2023-cü il** Qrafik 11

| | | | |
|---|---|---|---|
| | | Mediana (Me) | : 201.91 |
| Riyazi gözləmə (M) | : 215.45 | Minimal qiymət | : 150 |
| Ortakvadratik meyil | : 58.52 | Maksimal qiymət | : 670.6 |
| Moda | : 190 | Abituriyentlərin sayı | : 5249 |




5 və 6 saylı şəkillərdə 2023-cü ildə kənd təsərrüfatı profilli ixtisasları seçən abituriyentlərin və ümumilikdə I və IV qruplar üzrə ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanlarında topladıqları balların paylanma diaqramları təqdim edilmişdir. Bu diaqramların müqayisəsi göstərir ki, onlar arasında əhəmiyyətli fərq vardır. Belə ki, kənd təsərrüfatı profilli ixtisasları seçən abituriyentlərin böyük bir hissəsini (48.26%) 150-200 bal intervalında nəticə göstərənlər, I və IV qruplar üzrə ixtisas seçimində iştirak edən abituriyentlərin seçməsində isə beləməri 14.18% təşkil edir. Kənd təsərrüfatı profilli ixtisasları seçən abituriyentlərin yalnız 7.29%-i orta (300-500) və yüksək (500-700) bal intervallarında nəticə göstərib, I və IV qruplar üzrə ixtisas seçimində iştirak edən abituriyentlərin isə yarıdan çoxu (55.36%-i) orta və yüksək bal intervallarında nəticə göstərib.

## QƏBUL İMTAHANLARINDA (MÜSABİQƏDƏ) İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMLARI

### KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLAR




Şəkil 5

### I VƏ IV QRUPLAR ÜZRƏ BÜTÖVLÜKDƏ




Şəkil 6

## QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMLARI

### KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLAR




Şəkil 7

### I VƏ IV QRUPLAR ÜZRƏ BÜTÖVLÜKDƏ




Şəkil 8

Kənd təsərrüfatı profilli ixtisaslara və ümumilikdə I və IV qrupların ixtisaslarına qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları 7 və 8 saylı şəkillərdə verilmişdir. Diaqramların müqayisəsindən aydın olur ki, kənd təsərrüfatı profilli ixtisaslara qəbul olan abituriyentlərin demək olar ki, hamısı (98.72%-i) 150-200 və 200-300 bal intervallarında, I və IV qrupların ixtisaslarına qəbul olanlar isə əsasən 300-500 və 500-700 bal intervallarında (59.51%) nəticə göstərmişlər. Ən yüksək bal intervalı (500-700) üzrə I və IV qrup ixtisaslarına qəbul olan abituriyentlərin nisbi sayı bu qrupların ixtisaslarını seçən abituriyentlərin nisbi sayı ilə müqayisədə artdığı halda (15.51%-dən 16.54%-ə qədər), kənd təsərrüfatı profilli ixtisaslarda, əksinə, qəbul olanlar arasında 500-700 bal intervalında nəticə göstərən olmayıb. Belə ki, kənd təsərrüfatı profilli ixtisasları 500-700 bal intervalında nəticə göstərən 27 nəfər öz ərizəsində göstərməsinə baxmayaraq, bir nəfər belə bu ixtisaslardan birinə qəbul olmayıb.

Kənd təsərrüfatı profilli ixtisasları seçən və bu ixtisaslara qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramlarının (5 və 7 saylı şəkillər) müqayisəsi göstərir ki, qəbul olan abituriyentlər arasında 300-500 bal intervalında nəticə göstərənlərin nisbi sayı kəskin şəkildə azalmışdır (6.78%-dən 1.28%-ə qədər). Bütün bunlar göstərir ki, ixtisas seçimi zamanı yüksəkhazırlıqlı abituriyentlər kənd təsərrüfatı profilli ixtisasları ərizələrində ilk yerlərdə qeyd etmirlər. Xatırladaq ki, abituriyentlərə ixtisas seçimi zamanı ərizələrində 15-dək ixtisas kodunu qeyd etmək imkanı verilir. Göründüyü kimi, kənd təsərrüfatı profilli ixtisasların yüksək hazırlıqlı abituriyentlər arasında nüfuzu zəifdir.

11 saylı qrafikdə 2009-2023-cü illər üzrə kənd təsərrüfatı profilli ixtisaslara və I və IV qrupların ixtisaslarına qəbul olan abituriyentlərin ayrılıqda ortastatistik bal göstəriciləri təqdim edilmişdir. Qrafikdən göründüyü kimi, bu istiqamətləri seçən abituriyentlərin imtahan nəticələri arasındakı fərq həmişə eyni səviyyədə olmamışdır. Yalnız son illər bu ixtisaslara qəbul olanlarla I və IV qrupların ixtisaslarına qəbul olan abituriyentlərin ortastatistik balları arasındakı fərq getdikcə artmışdır. Misal üçün, 2014-cü ildə bu istiqamətlər üzrə ali təhsil müəssisələrinə qəbul olan ortastatistik abituriyentlərin balları arasındakı fərq 100.22-yə bərabər idisə, 2015-ci ildə fərq artıq 141.12 bala bərabər olmuşdur. 2015-2017-ci illərdə qeyd olunan istiqamətlər üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin ortastatistik balları arasındakı fərqin nisbətən stabil qaldığını müşahidə edirik (2016-cı ildə fərq 141.06, 2017-ci ildə isə 135.13 bala bərabər olmuşdur). 2018-ci ildə bu fərq bir qədər azalaraq 122.97 bala bərabər olmuşdur. 2019-cu ildə isə fərq yenidən artaraq 148.80 bal təşkil etmişdir. 2020-ci və 2021-ci illərdə bu fərq demək olar ki, stabil qalmış və müvafiq olaraq, 148.93 və 148.20 bal təşkil etmişdir. 2022-ci və 2023-cü illərdə isə bu fərq bir qədər artaraq müvafiq olaraq, 155.61 və 153.05 bala bərabər olmuşdur.

## 2009-2023-CÜ İLLƏRDƏ KƏND TƏSƏRRÜFATI PROFİLLİ VƏ BÜTÖVLÜKDƏ I VƏ IV QRUPLARIN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN ORTASTATİSTİK BALLARININ DİNAMİKASI




Qrafik 11

Kənd təsərrüfatı profilli ixtisasları seçən abituriyentlərin 2023-cü ilin qəbul imtahanında topladıqları balların paylanma diaqramları Azərbaycan və rus bölmələri üzrə 9 və 10 saylı şəkillərdə təqdim edilmişdir. Diaqramların müqayisəli təhlilindən görünür ki, rus bölməsinin abituriyentlərinin imtahan nəticələri Azərbaycan bölməsinin abituriyentlərinin imtahan nəticələrindən bir az yüksəkdir. Bu fərq əsasən 150-200 və 200-300 bal intervallarında hiss olunur. Belə ki, 150-200 bal intervalında nəticə göstərən abituriyentlərin nisbi sayı rus bölməsində 32.43%-ə, Azərbaycan bölməsində 49.85%-ə, 200-300 bal intervalında isə abituriyentlərin nisbi sayı rus bölməsində 59.25%-ə, Azərbaycan bölməsində 42.95%-ə bərabər olub. Göründüyü kimi aşağı bal intervalında Azərbaycan bölməsinin, nisbətən yüksək bal intervalında isə rus bölməsinin abituriyentlərinin nisbi sayı daha çoxdur.

Kənd təsərrüfatı profilli ixtisaslara qəbul olanların topladıqları balların paylanma diaqramlarının (11 və 12 saylı şəkillərə bax) müqayisəsi zamanı Azərbaycan bölməsinin abituruyentlərinin imtahan nəticələrinin də rus bölməsinin abituriyentlərinin imtahan nəticələrindən aşağı olduğu müşahidə olunur. Belə ki, 200-300 və 300-500 bal intervallarında nəticə göstərən abituriyentlərin nisbi sayı Azərbaycan bölməsində (39.23%) rus bölməsindən (61.76%) aşağı olmuş və eyni zamanda 150-200 bal intervalında nəticə göstərən abituriyentlərin nisbi sayı Azərbaycan bölməsində (60.77%) rus bölməsindən (38.24%) yüksək olmuşdur.

## KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARI SEÇƏN ABİTURİYENTLƏRİN QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMLARI




Şəkil 9




Şəkil 10

## KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARA QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMLARI




Şəkil 11




Şəkil 12

Son 5 ildə (2019-2023-cü illər) ayrılıqda kənd təsərrüfatı profilli ixtisaslara və I və IV qrupların ixtisaslarına ərizə verən abituriyentlərin ortastatistik portreti aşkar edilmişdir. Onların imtahan fənləri üzrə testlərə verdiyi düzgün cavabların faizləri 13 saylı cədvəldə təqdim edilmişdir. Cədvəldən göründüyü kimi, nəzərdən keçirilən illərdə I və IV qrupların ixtisaslarına ərizə verən ortastatistik abituriyentin ayrı-ayrı fənlər üzrə imtahan nəticələri kənd təsərrüfatı profilli ixtisaslara ərizə verən ortastatistik abituriyentin imtahan nəticələrindən yüksək olmuşdur. Onlar arasındakı fərq son illər ərzində daha da böyüyərək 2019-cu ildə 20-56, 2020-ci ildə 20-77, 2021-ci ildə 21-78, 2022-ci ildə 21-81 faizə çatmışdır. 2023-cü ildə bu fərq 25-73 faiz olmuşdur.

Cədvəl 13

**İMTAHAN FƏNLƏRİ ÜZRƏ GÖSTƏRİCİLƏRİN MÜQAYİSƏSİ (İXTİSAS SEÇİMİNDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏR)**

| F Ə N N | Düzgün cavabların faizi | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kənd təsərrüfatı profilli ixtisasları seçənlər | | | | | I və IV qrupların ixtisaslarını seçənlər | | | | |
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
| Ana dili | 52.29 | 54.77 | 51.65 | 51.27 | 45.63 | 62.60 | 65.63 | 62.45 | 62.24 | 57.08 |
| Riyaziyyat | 40.10/ 30.09 | 34.49/ 33.70 | 36.57/ 23.82 | 32.48/ 30.53 | 33.12/ 29.18 | 56.44/ 46.02 | 53.17/ 51.26 | 55.73/ 41.31 | 53.59/ 48.94 | 53.94/ 49.28 |
| Fizika | 28.36 | 22.44 | 26.08 | 29.05 | 24.40 | 44.23 | 39.80 | 46.39 | 50.64 | 42.12 |
| Kimya | 32.95 | 27.45 | 30.36 | 26.34 | 27.66 | 50.48 | 48.36 | 50.00 | 47.73 | 39.57 |
| Biologiya | 49.93 | 45.10 | 37.76 | 40.79 | 35.12 | 63.53 | 64.66 | 59.13 | 60.34 | 53.75 |
| İngilis dili | 35.20 | 37.65 | 45.73 | 38.88 | 46.31 | 49.97 | 53.03 | 60.14 | 53.48 | 61.42 |

14 saylı cədvəldə son 5 ildə (2019-2023-cü illər) ayrılıqda kənd təsərrüfatı profilli ixtisaslara və I və IV qrupların ixtisaslarına qəbul olan abituriyentlərin imtahan fənləri üzrə bilik səviyyəsi göstərilmişdir. Burada da I və IV qrupların ixtisaslarına qəbul olanların bilik yarışındakı üstünlüyü nəzərə çarpır.

Cədvəl 14

**İMTAHAN FƏNLƏRi ÜZRƏ GÖSTƏRİCİLƏRİN MÜQAYİSƏSİ (QƏBUL OLAN ABİTURİYENTLƏR)**

| F Ə N N | Düzgün cavabların faizi | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Kənd təsərrüfatı profilli ixtisaslara qəbul olanlar | | | | | I və IV qrupların ixtisaslarına qəbul olanlar | | | | |
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
| Ana dili | 51.78 | 56.84 | 54.48 | 53.28 | 44.89 | 64.68 | 68.20 | 65.10 | 64.22 | 58.66 |
| Riyaziyyat | 38.02/ 29.17 | 35.89/ 34.67 | 38.52/ 23.88 | 32.79/ 28.82 | 31.35/ 28.67 | 59.32/ 49.07 | 57.30/ 56.12 | 59.62/ 45.35 | 56.75/ 52.26 | 56.32/ 51.74 |
| Fizika | 24.70 | 21.59 | 24.87 | 28.00 | 22.43 | 46.48 | 43.48 | 49.92 | 53.68 | 43.96 |
| Kimya | 28.89 | 26.65 | 29.26 | 24.87 | 25.94 | 53.15 | 52.79 | 53.39 | 50.73 | 40.98 |
| Biologiya | 39.62 | 39.02 | 33.19 | 35.50 | 30.04 | 63.73 | 64.92 | 59.25 | 60.63 | 54.12 |
| İngilis dili | 31.76 | 39.63 | 49.01 | 39.88 | 44.27 | 52.39 | 56.59 | 63.51 | 55.86 | 63.30 |

15-24 saylı cədvəllərdə kənd təsərrüfatı profilli ixtisaslara qəbul olan gənclərin imtahan nəticələrinin statistik göstəriciləri təqdim edilmişdir. Cədvəllərdən göründüyü kimi, bu ixtisaslar arasında dövlət sifarişi əsasında qəbul aparılan yerlər üzrə ən yüksək keçid balı 2014-cü ildə 304, 2015-ci ildə 292, 2016-cı ildə 302, 2017-ci ildə 325, 2018-ci ildə 406-ya, 2019-cu ildə 271.8-ə, 2020-ci ildə 265.8-ə, 2021-ci ildə 270.9-a, 2022-ci ildə 266.2-yə, 2023-cü ildə 245.5, ödənişli təhsil forması üzrə qəbul aparılan yerlər üzrə isə, müvafiq olaraq, 256, 313, 195, 297, 424, 271.7, 265.0, 276.7, 269.6, 241.7-yə bərabər olmuşdur.

Ümumiyyətlə, bütün illər üzrə yüksək hazırlıqlı abituriyentlər daha çox Bakı Dövlət Universitetinə üstünlük vermişlər*.

## KƏND TƏSƏRRÜFATI PROFİLLİ İXTİSASLARA QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN NƏTİCƏLƏRİNİN STATİSTİK GÖSTƏRİCİLƏRİ

Cədvəl 15

**2014-cü il**

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)*** | | | | | | | | |
| 144269 | Aqromühəndislik | A | Ə | Bt | 55 | 221.055 | 300 | 195 |
| | | | | DS | 55 | 221.055 | 300 | 195 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144277 | Aqromühəndislik | A | Q | Bt | 15 | 199.200 | 302 | 173 |
| | | | | DS | 15 | 199.200 | 302 | 173 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144333 | Aqromühəndislik | R | Ə | Bt | 15 | 238.800 | 281 | 192 |
| | | | | DS | 15 | 238.800 | 281 | 192 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144577 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 6 | 196.333 | 266 | 151 |
| | | | | DS | 6 | 196.333 | 266 | 151 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144585 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 5 | 207.800 | 278 | 169 |
| | | | | DS | 5 | 207.800 | 278 | 169 |
| | | | | Ö | 0 | --- | --- | --- |

*Ali təhsil müəssisələrinə qeydiyyatdan əvvəlki göstəricilər nəzərə alınıb.

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144593 | Aqronomluq | A | Ə | Bt | 3 | 228.000 | 278 | 196 |
| | | | | DS | 3 | 228.000 | 278 | 196 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144617 | Aqronomluq | A | Q | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144625 | Zootexniklik | A | Ə | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144633 | Zootexniklik | A | Q | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144641 | Baytarlıq | A | Ə | Bt | 17 | 192.529 | 259 | 151 |
| | | | | DS | 17 | 192.529 | 259 | 151 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144658 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Ə | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144666 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Q | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144674 | Meşəçilik | A | Ə | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144682 | Meşəçilik | A | Q | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144699 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144722 | Aqronomluq | R | Ə | Bt | 1 | 304.000 | 304 | 304 |
| | | | | DS | 1 | 304.000 | 304 | 304 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144739 | Baytarlıq | R | Ə | Bt | 6 | 213.833 | 295 | 172 |
| | | | | DS | 6 | 213.833 | 295 | 172 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| | ***Bakı Dövlət Universiteti*** | | | | | | | |
| 112484 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 284.600 | 360 | 240 |
| | | | | DS | 23 | 289.913 | 360 | 247 |
| | | | | Ö | 7 | 267.143 | 317 | 240 |
| 112492 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 247.250 | 334 | 211 |
| | | | | DS | 6 | 275.667 | 334 | 227 |
| | | | | Ö | 14 | 235.071 | 284 | 211 |
| 112573 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 6 | 282.667 | 311 | 256 |
| | | | | DS | 5 | 288.000 | 311 | 270 |
| | | | | Ö | 1 | 256.000 | 256 | 256 |
| | ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | |
| 142721 | Aqronomluq | A | Ə | Bt | 2 | 155.500 | 160 | 151 |
| | | | | DS | 2 | 155.500 | 160 | 151 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 142738 | Baytarlıq | A | Ə | Bt | 6 | 191.500 | 297 | 153 |
| | | | | DS | 6 | 191.500 | 297 | 153 |
| | | | | Ö | 0 | --- | --- | --- |

Cədvəl 16

**2015-ci il**

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| | ***Bakı Dövlət Universiteti*** | | | | | | | |
| 111285 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 25 | 359.960 | 500 | 292 |
| | | | | DS | 24 | 361.917 | 500 | 292 |
| | | | | Ö | 1 | 313.000 | 313 | 313 |
| 111382 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 25 | 196.680 | 227 | 186 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 25 | 196.680 | 227 | 186 |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 112492 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 274.100 | 365 | 228 |
| | | | | DS | 10 | 290.000 | 318 | 274 |
| | | | | Ö | 10 | 258.200 | 365 | 228 |
| ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | | |
| 142665 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 15 | 196.467 | 210 | 194 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 15 | 196.467 | 210 | 194 |
| 142673 | Baytarlıq | A | Ə | Bt | 15 | 199.400 | 241 | 158 |
| | | | | DS | 15 | 199.400 | 241 | 158 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)*** | | | | | | | | |
| 144244 | Aqronomluq | A | Ə | Bt | 30 | 229.567 | 278 | 210 |
| | | | | DS | 30 | 229.567 | 278 | 210 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144252 | Aqronomluq | A | Q | Bt | 15 | 208.667 | 258 | 198 |
| | | | | DS | 15 | 208.667 | 258 | 198 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144269 | Zootexniklik | A | Ə | Bt | 30 | 206.000 | 274 | 198 |
| | | | | DS | 30 | 206.000 | 274 | 198 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144293 | Aqromühəndislik | A | Ə | Bt | 60 | 247.033 | 393 | 219 |
| | | | | DS | 60 | 247.033 | 393 | 219 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144317 | Aqromühəndislik | A | Q | Bt | 15 | 253.467 | 287 | 221 |
| | | | | DS | 15 | 253.467 | 287 | 221 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144374 | Aqronomluq | R | Ə | Bt | 15 | 221.667 | 366 | 189 |
| | | | | DS | 15 | 221.667 | 366 | 189 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144382 | Aqromühəndislik | R | Ə | Bt | 15 | 226.800 | 323 | 189 |
| | | | | DS | 15 | 226.800 | 323 | 189 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144569 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 15 | 282.267 | 317 | 261 |
| | | | | DS | 15 | 282.267 | 317 | 261 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144577 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 232.667 | 304 | 206 |
| | | | | DS | 15 | 232.667 | 304 | 206 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144593 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Ə | Bt | 30 | 213.467 | 321 | 198 |
| | | | | DS | 30 | 213.467 | 321 | 198 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144617 | Meşəçilik | A | Ə | Bt | 30 | 212.667 | 248 | 199 |
| | | | | DS | 30 | 212.667 | 248 | 199 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144585 | Baytarlıq | A | Ə | Bt | 30 | 206.567 | 319 | 168 |
| | | | | DS | 30 | 206.567 | 319 | 168 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144625 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 15 | 178.333 | 205 | 167 |
| | | | | DS | 15 | 178.333 | 205 | 167 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144641 | Baytarlıq | R | Ə | Bt | 11 | 229.636 | 401 | 152 |
| | | | | DS | 11 | 229.636 | 401 | 152 |
| | | | | Ö | 0 | --- | --- | --- |

Cədvəl 17

**2016-cı il**

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Dövlət Universiteti*** | | | | | | | | |
| 111285 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 45 | 325.778 | 474 | 302 |
| | | | | DS | 45 | 325.778 | 474 | 302 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 111382 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 15 | 203.733 | 298 | 195 |
| | | | | DS | 1 | 298.000 | 298 | 298 |
| | | | | Ö | 14 | 197.000 | 208 | 195 |
| 112573 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 283.100 | 361 | 265 |
| | | | | DS | 20 | 283.100 | 361 | 265 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | | |
| 142235 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 20 | 213.050 | 282 | 196 |
| | | | | DS | 20 | 213.050 | 282 | 196 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 142543 | Baytarlıq | A | Ə | Bt | 20 | 208.650 | 327 | 160 |
| | | | | DS | 20 | 208.650 | 327 | 160 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)*** | | | | | | | | |
| 144236 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 60 | 259.583 | 305 | 237 |
| | | | | DS | 60 | 259.583 | 305 | 237 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144244 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 217.533 | 266 | 199 |
| | | | | DS | 15 | 217.533 | 266 | 199 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144252 | Aqronomluq | A | Ə | Bt | 45 | 219.356 | 364 | 201 |
| | | | | DS | 45 | 219.356 | 364 | 201 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144269 | Aqronomluq | A | Q | Bt | 15 | 200.267 | 223 | 196 |
| | | | | DS | 15 | 200.267 | 223 | 196 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144277 | Zootexniklik | A | Ə | Bt | 30 | 197.567 | 211 | 195 |
| | | | | DS | 30 | 197.567 | 211 | 195 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144285 | Zootexniklik | A | Q | Bt | 15 | 194.467 | 196 | 194 |
| | | | | DS | 15 | 194.467 | 196 | 194 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144293 | Aqromühəndislik | A | Ə | Bt | 60 | 233.000 | 279 | 214 |
| | | | | DS | 60 | 233.000 | 279 | 214 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144317 | Aqromühəndislik | A | Q | Bt | 15 | 203.333 | 272 | 198 |
| | | | | DS | 15 | 203.333 | 272 | 198 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144325 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Ə | Bt | 45 | 198.267 | 217 | 195 |
| | | | | DS | 45 | 198.267 | 217 | 195 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144333 | Meşəçilik | A | Ə | Bt | 30 | 209.000 | 260 | 197 |
| | | | | DS | 30 | 209.000 | 260 | 197 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144358 | Aqronomluq | R | Ə | Bt | 15 | 212.933 | 288 | 193 |
| | | | | DS | 15 | 212.933 | 288 | 193 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144366 | Aqromühəndislik | R | Ə | Bt | 15 | 241.267 | 368 | 195 |
| | | | | DS | 15 | 241.267 | 368 | 195 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144569 | Baytarlıq | A | Ə | Bt | 45 | 221.489 | 349 | 179 |
| | | | | DS | 45 | 221.489 | 349 | 179 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144577 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 30 | 185.500 | 209 | 176 |
| | | | | DS | 30 | 185.500 | 209 | 176 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144593 | Baytarlıq | R | Ə | Bt | 5 | 174.000 | 246 | 153 |
| | | | | DS | 5 | 174.000 | 246 | 153 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| | ***Lənkəran Dövlət Universiteti*** | | | | | | | |
| 151178 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 25 | 236.240 | 293 | 199 |
| | | | | DS | 25 | 236.240 | 293 | 199 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 151186 | Aqronomluq | A | Ə | Bt | 25 | 196.680 | 218 | 193 |
| | | | | DS | 25 | 196.680 | 218 | 193 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 151194 | Meşəçilik | A | Ə | Bt | 25 | 195.840 | 277 | 190 |
| | | | | DS | 25 | 195.840 | 277 | 190 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 151372 | Baytarlıq | A | Ə | Bt | 25 | 186.640 | 472 | 154 |
| | | | | DS | 25 | 186.640 | 472 | 154 |
| | | | | Ö | 0 | --- | --- | --- |

Cədvəl 18

**2017-ci il**

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Dövlət Universiteti*** | | | | | | | | |
| 111455 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 343.133 | 398 | 325 |
| | | | | DS | 30 | 343.133 | 398 | 325 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 111463 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 7 | 296.143 | 376 | 258 |
| | | | | DS | 5 | 280.000 | 315 | 258 |
| | | | | Ö | 2 | 336.500 | 376 | 297 |
| 111471 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 19 | 298.632 | 380 | 204 |
| | | | | DS | 17 | 307.471 | 380 | 262 |
| | | | | Ö | 2 | 223.500 | 243 | 204 |
| 112751 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 326.850 | 367 | 312 |
| | | | | DS | 20 | 326.850 | 367 | 312 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | | |
| 142243 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 15 | 268.067 | 309 | 236 |
| | | | | DS | 15 | 268.067 | 309 | 236 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 142551 | Baytarlıq | A | Ə | Bt | 17 | 177.118 | 264 | 150 |
| | | | | DS | 17 | 177.118 | 264 | 150 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)*** | | | | | | | | |
| 144252 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 75 | 278.267 | 391 | 254 |
| | | | | DS | 75 | 278.267 | 391 | 254 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144269 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 226.467 | 310 | 206 |
| | | | | DS | 15 | 226.467 | 310 | 206 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144277 | Aqronomluq | A | Ə | Bt | 45 | 261.133 | 399 | 236 |
| | | | | DS | 45 | 261.133 | 399 | 236 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144285 | Aqronomluq | A | Q | Bt | 15 | 213.800 | 257 | 194 |
| | | | | DS | 15 | 213.800 | 257 | 194 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144293 | Aqronomluq | R | Ə | Bt | 15 | 194.267 | 237 | 181 |
| | | | | DS | 15 | 194.267 | 237 | 181 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144317 | Aqronomluq (tədris ingilis dilində) | B | Ə | Bt | 10 | 210.100 | 301 | 153 |
| | | | | DS | 10 | 210.100 | 301 | 153 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144325 | Zootexniklik | A | Ə | Bt | 45 | 221.933 | 302 | 201 |
| | | | | DS | 45 | 221.933 | 302 | 201 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144333 | Zootexniklik | A | Q | Bt | 15 | 190.933 | 194 | 188 |
| | | | | DS | 15 | 190.933 | 194 | 188 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144358 | Aqromühəndislik | A | Ə | Bt | 60 | 270.300 | 354 | 238 |
| | | | | DS | 60 | 270.300 | 354 | 238 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144366 | Aqromühəndislik | A | Q | Bt | 15 | 199.200 | 229 | 192 |
| | | | | DS | 15 | 199.200 | 229 | 192 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144374 | Aqromühəndislik | R | Ə | Bt | 15 | 232.600 | 383 | 182 |
| | | | | DS | 15 | 232.600 | 383 | 182 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144382 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Ə | Bt | 45 | 207.289 | 302 | 194 |
| | | | | DS | 45 | 207.289 | 302 | 194 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144399 | Meşəçilik | A | Ə | Bt | 30 | 230.100 | 291 | 206 |
| | | | | DS | 30 | 230.100 | 291 | 206 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144569 | Baytarlıq | A | Ə | Bt | 60 | 230.683 | 522 | 167 |
| | | | | DS | 60 | 230.683 | 522 | 167 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144577 | Baytarlıq | R | Ə | Bt | 8 | 200.000 | 288 | 157 |
| | | | | DS | 8 | 200.000 | 288 | 157 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144585 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 30 | 178.800 | 221 | 159 |
| | | | | DS | 30 | 178.800 | 221 | 159 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Lənkəran Dövlət Universiteti*** | | | | | | | | |
| 151145 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 214.767 | 312 | 193 |
| | | | | DS | 6 | 282.667 | 312 | 256 |
| | | | | Ö | 24 | 197.792 | 228 | 193 |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 151153 | Aqronomluq | A | Ə | Bt | 30 | 201.300 | 292 | 190 |
| | | | | DS | 3 | 275.000 | 292 | 252 |
| | | | | Ö | 27 | 193.111 | 208 | 190 |
| 151161 | Aqronomluq | A | Q | Bt | 15 | 191.133 | 207 | 188 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 15 | 191.133 | 207 | 188 |
| 151178 | Meşəçilik | A | Ə | Bt | 30 | 201.333 | 287 | 187 |
| | | | | DS | 3 | 279.667 | 287 | 273 |
| | | | | Ö | 27 | 192.630 | 237 | 187 |
| 151412 | Baytarlıq | A | Ə | Bt | 24 | 187.208 | 343 | 150 |
| | | | | DS | 4 | 315.750 | 343 | 274 |
| | | | | Ö | 20 | 161.500 | 192 | 150 |
| ***Qərb Universiteti*** | | | | | | | | |
| 157529 | Meşəçilik | B | Ə | Bt | 15 | 192.067 | 193 | 191 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 15 | 192.067 | 193 | 191 |

Cədvəl 19

**2018-ci il**

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| | ***Bakı Dövlət Universiteti*** | | | | | | | |
| 111455 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 342.433 | 382 | 328 |
| | | | | DS | 30 | 342.433 | 382 | 328 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 111463 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 308.267 | 326 | 294 |
| | | | | DS | 15 | 308.267 | 326 | 294 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 111471 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 20 | 297.300 | 334 | 230 |
| | | | | DS | 19 | 300.842 | 334 | 284 |
| | | | | Ö | 1 | 230.000 | 230 | 230 |
| 112857 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 435.400 | 546 | 406 |
| | | | | DS | 18 | 435.556 | 546 | 406 |
| | | | | Ö | 2 | 434.000 | 444 | 424 |
| | ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | |
| 142284 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 15 | 296.333 | 330 | 265 |
| | | | | DS | 15 | 296.333 | 330 | 265 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 142665 | Baytarlıq | A | Ə | Bt | 15 | 213.733 | 446 | 153 |
| | | | | DS | 15 | 213.733 | 446 | 153 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| | ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)*** | | | | | | | |
| 144236 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 75 | 293.147 | 369 | 267 |
| | | | | DS | 75 | 293.147 | 369 | 267 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144244 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 245.133 | 277 | 224 |
| | | | | DS | 15 | 245.133 | 277 | 224 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144252 | Torpaqşünaslıq və aqrokimya (tədris ingilis dilində) | B | Ə | Bt | 12 | 183.000 | 284 | 153 |
| | | | | DS | 12 | 183.000 | 284 | 153 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144269 | Aqronomluq | A | Ə | Bt | 60 | 288.467 | 532 | 247 |
| | | | | DS | 60 | 288.467 | 532 | 247 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144277 | Aqronomluq | A | Q | Bt | 15 | 232.600 | 324 | 207 |
| | | | | DS | 15 | 232.600 | 324 | 207 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144285 | Aqronomluq | R | Ə | Bt | 15 | 251.933 | 453 | 199 |
| | | | | DS | 15 | 251.933 | 453 | 199 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144293 | Aqronomluq (tədris ingilis dilində) | B | Ə | Bt | 14 | 190.214 | 316 | 161 |
| | | | | DS | 14 | 190.214 | 316 | 161 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144317 | Zootexniklik | A | Ə | Bt | 45 | 232.222 | 302 | 211 |
| | | | | DS | 45 | 232.222 | 302 | 211 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144325 | Zootexniklik | A | Q | Bt | 15 | 199.133 | 206 | 196 |
| | | | | DS | 15 | 199.133 | 206 | 196 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144333 | Zootexniklik | R | Ə | Bt | 15 | 185.800 | 244 | 169 |
| | | | | DS | 15 | 185.800 | 244 | 169 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144366 | Aqromühəndislik | A | Ə | Bt | 60 | 269.850 | 325 | 248 |
| | | | | DS | 60 | 269.850 | 325 | 248 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144374 | Aqromühəndislik | A | Q | Bt | 15 | 235.467 | 275 | 210 |
| | | | | DS | 15 | 235.467 | 275 | 210 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144382 | Aqromühəndislik | R | Ə | Bt | 15 | 256.600 | 337 | 202 |
| | | | | DS | 15 | 256.600 | 337 | 202 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144399 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi | A | Ə | Bt | 45 | 214.533 | 346 | 198 |
| | | | | DS | 45 | 214.533 | 346 | 198 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144414 | Meşəçilik | A | Ə | Bt | 30 | 228.033 | 265 | 212 |
| | | | | DS | 30 | 228.033 | 265 | 212 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144422 | Şərabçılıq | A | Ə | Bt | 15 | 241.333 | 310 | 213 |
| | | | | DS | 15 | 241.333 | 310 | 213 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144617 | Baytarlıq | A | Ə | Bt | 60 | 270.217 | 524 | 211 |
| | | | | DS | 60 | 270.217 | 524 | 211 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144625 | Baytarlıq | R | Ə | Bt | 15 | 266.933 | 484 | 173 |
| | | | | DS | 15 | 266.933 | 484 | 173 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144633 | Baytarlıq (tədris ingilis dilində) | B | Ə | Bt | 15 | 286.600 | 561 | 166 |
| | | | | DS | 15 | 286.600 | 561 | 166 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144641 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 45 | 206.733 | 288 | 178 |
| | | | | DS | 45 | 206.733 | 288 | 178 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144658 | Bitki mühafizəsi | A | Ə | Bt | 30 | 192.733 | 280 | 169 |
| | | | | DS | 30 | 192.733 | 280 | 169 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144666 | Bağçılıq və tərəvəzçilik | A | Ə | Bt | 30 | 196.667 | 540 | 157 |
| | | | | DS | 30 | 196.667 | 540 | 157 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| | ***Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)*** | | | | | | | |
| 147299 | Şərabçılıq | A | Ə | Bt | 2 | 321.500 | 336 | 307 |
| | | | | DS | 2 | 321.500 | 336 | 307 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 147314 | Şərabçılıq | A | Q | Bt | 0 | --- | --- | --- |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 0 | --- | --- | --- |
| | ***Lənkəran Dövlət Universiteti*** | | | | | | | |
| 151161 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 234.200 | 329 | 191 |
| | | | | DS | 10 | 303.100 | 329 | 286 |
| | | | | Ö | 20 | 199.750 | 224 | 191 |
| 151178 | Aqronomluq | A | Ə | Bt | 30 | 227.667 | 304 | 190 |
| | | | | DS | 13 | 271.846 | 304 | 253 |
| | | | | Ö | 17 | 193.882 | 204 | 190 |
| 151186 | Aqronomluq | A | Q | Bt | 15 | 196.400 | 273 | 189 |
| | | | | DS | 1 | 273.000 | 273 | 273 |
| | | | | Ö | 14 | 190.929 | 194 | 189 |
| 151194 | Meşəçilik | A | Ə | Bt | 30 | 190.600 | 270 | 186 |
| | | | | DS | 1 | 270.000 | 270 | 270 |
| | | | | Ö | 29 | 187.862 | 195 | 186 |
| 151486 | Baytarlıq | A | Ə | Bt | 30 | 243.967 | 459 | 150 |
| | | | | DS | 3 | 331.333 | 425 | 281 |
| | | | | Ö | 27 | 234.259 | 459 | 150 |
| | ***Qərbi Kaspi Universiteti*** | | | | | | | |
| 157229 | Meşəçilik | B | Ə | Bt | 25 | 221.760 | 311 | 186 |
| | | | | DS | 9 | 281.778 | 311 | 258 |
| | | | | Ö | 16 | 188.000 | 192 | 186 |
| 157237 | Meşəçilik | B | Q | Bt | 10 | 187.200 | 190 | 186 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 10 | 187.200 | 190 | 186 |
| 157578 | Su bioehtiyatları və akvabitkilər | B | Ə | Bt | 25 | 426.840 | 600 | 204 |
| | | | | DS | 5 | 374.800 | 398 | 327 |
| | | | | Ö | 20 | 439.850 | 600 | 204 |

Cədvəl 20

**2019-cu il**

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| | ***Bakı Dövlət Universiteti*** | | | | | | | |
| 111463 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 30 | 303.440 | 448.2 | 271.7 |
| | | | | DS | 26 | 307.004 | 448.2 | 271.8 |
| | | | | Ö | 4 | 280.275 | 292.1 | 271.7 |

| İxt. kodu | İXTİSASIN ADI | BI | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 111471 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 15 | 228.553 | 255.8 | 222.4 |
| | | | | DS | 0 | --- | --- | --- |
| | | | | Ö | 15 | 228.553 | 255.8 | 222.4 |
| 111488 | Torpaqşünaslıq və aqrokimya | R | Ə | Bt | 25 | 240.272 | 336.0 | 215.2 |
| | | | | DS | 6 | 267.967 | 336.0 | 220.8 |
| | | | | Ö | 19 | 231.526 | 269.1 | 215.2 |
| 112946 | Su bioehtiyatları və akvabitkilər | A | Ə | Bt | 20 | 282.650 | 401.8 | 207.8 |
| | | | | DS | 10 | 306.700 | 401.8 | 256.9 |
| | | | | Ö | 10 | 258.600 | 300.3 | 207.8 |
| ***Naxçıvan Dövlət Universiteti*** | | | | | | | | |
| 142276 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 15 | 236.873 | 306.9 | 200.0 |
| | | | | DS | 15 | 236.873 | 306.9 | 200.0 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 142657 | Baytarlıq | A | Ə | Bt | 15 (10+5)* | 196.620 | 248.3 | 152.2 |
| | | | | DS | 15 (10+5)* | 196.620 | 248.3 | 152.2 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| ***Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)*** | | | | | | | | |
| 144244 | Torpaqşünaslıq və aqrokimya | A | Ə | Bt | 80 | 240.154 | 332.9 | 210.7 |
| | | | | DS | 80 | 240.154 | 332.9 | 210.7 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144252 | Torpaqşünaslıq və aqrokimya | A | Q | Bt | 10 | 217.720 | 271.0 | 195.5 |
| | | | | DS | 10 | 217.720 | 271.0 | 195.5 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144269 | Torpaqşünaslıqvə aqrokimya (tədrisingilisdilində) | A | Ə | Bt | 15 | 225.067 | 337.8 | 189.8 |
| | | | | DS | 15 | 225.067 | 337.8 | 189.8 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144277 | Aqronomluq | A | Ə | Bt | 65 | 239.234 | 364.6 | 203.6 |
| | | | | DS | 65 | 239.234 | 364.6 | 203.6 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144285 | Aqronomluq | A | Q | Bt | 10 | 193.320 | 235.7 | 182.6 |
| | | | | DS | 10 | 193.320 | 235.7 | 182.6 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144293 | Aqronomluq | R | Ə | Bt | 15 | 203.373 | 414.5 | 164.7 |
| | | | | DS | 15 | 203.373 | 414.5 | 164.7 |
| | | | | Ö | 0 | --- | --- | --- |

| İxt. kodu | İXTİSASIN ADI | Bl | TF | N | Qəbul olunub | Orta bal | Maks. bal | Min. bal |
|---|---|---|---|---|---|---|---|---|
| 144317 | Aqronomluq (tədris ingilis dilində) | B | Ə | Bt | 15 | 247.467 | 340.5 | 191.3 |
| | | | | DS | 15 | 247.467 | 340.5 | 191.3 |
| | | | | Ö | 0 | --- | --- | --- |
| 144325 | Zootexniklik | A | Ə | Bt | 50 | 201.412 | 288.1 | 188.0 |
| | | | | DS | 50 | 201.412 | 288.1 | 188.0 |
